Biz hər bir ümmət üçün qurbangah müəyyən etdik (və ya hər bir ümmətə qurban kəsməyi lazım bildik) ki, Allahın onlara ruzi verdiyi (dördayaqlı) heyvanların üstündə (onları kəsdikləri zaman) Allahın adını çəksinlər (bismillah desinlər). Sizin tanrınız yalnız bir olan Allahdır...

*(Qurani-Kərim, Həcc, 34)*

## Bakıda 42-ci Ümumdünya Şahmat Olimpiadası keçirilir

Bakıda 42-ci Ümumdünya Şahmat Olimpiadası start götürüb. Olimpiadada iştirak etmək üçün 176 ölkə qeydiyyatdan keçib. Ümumilikdə 181 kişi və 142 qadın komandası mübarizə aparacaq. Bu, iştirakçı ölkələrin sayına görə Olimpiada tarixində rekord göstərici sayılır. On bir turdan ibarət yarışlar sentyabrın 13-də yekunlaşacaq. Azərbaycan Olimpiadada üç kişi və üç qadın komandası ilə təmsil olunacaq.

Qeyd edək ki, sentyabrın 1-dən 14-dək keçiriləcək Olimpiada çərçivəsində "Kristal Hall"da Rusiyanın Şahmat Muzeyi tərəfindən sərgi də təşkil ediləcək.

www.scwra.gov.az

Dinimiz milli-mənəvi sərvətimizdir.

# Cəmiyyət və Din

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 08 (301) / AVQUST 2016-cı il

# Prezident İlham Əliyev "Şahdəniz-2" layihəsi üzrə dayaq blokunun dənizə yola salınması mərasimində iştirak edib




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 1-də Bakı dərin özüllər zavodunda "Şahdəniz-2" layihəsinin hasilat və dikborular platformasının dayaq blokunun dənizə yola salınması mərasimində iştirak edib.**

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və BP-nin "Şahdəniz-2" üzrə vitse-prezidenti Yuan Dramond "Şahdəniz" layihəsi ilə bağlı görülən işlər barədə dövlətimizin başçısına məlumat veriblər. Bildirilib ki, indiyədək layihənin icrası dənizdə və quruda yerləşən bütün istehsalat-quraşdırma sahələrində uğurla davam edib. Hazırda mühəndis-layihələndirmə, təchizat-tədarük və tikinti də daxil olmaqla, işlərin 77 faizi tamamlanıb. Layihə çərçivəsində ilk qazın nəqlinə və sonradan hasilatın artırılmasına hazırlıq məqsədilə "Heydər Əliyev" və "İstiqlal" qazma qurğularından istifadə etməklə artıq 10 istismar quyusu qazılıb. "Şahdəniz Mərhələ 2" çərçivəsində əsas diqqət ildə əlavə 16 milyard kubmetr qaz və gündə 120 min barrelədək kondensat əldə etmək üçün hazırda istismar edilən lay intervallarında qalan ehtiyatlara yönəlib. Layihə çərçivəsində ildə 6 milyard kubmetr qaz Türkiyəyə nəql ediləcək. Qalan həcm, yəni ildə 10 milyard kubmetr Avropa alıcılarına çatdırılacaq. "Şahdəniz Mərhələ 2"yə bir-birinə körpü ilə birləşdirilən iki yeni hasilat platformasının, iki yarımdalma qazma qurğusundan qazılan 26 sualtı quyunun, suyun 550 metrədək dərinliyində quraşdırılan 500 kilometr uzunluğunda sualtı boru kəmərlərinin inşası və Səngəçal terminalının genişləndirilməsi işləri daxildir.

Sonra Prezident İlham Əliyev "Şahdəniz-2" layihəsinin hasilat və dikborular platformasının dayaq blokunun dənizə yola salınmasını bildirən düyməni basıb.

Bu dayaq blokunun çəkisi 13 min 150 ton, hündürlüyü isə 105 metrdir. Blok 12 hasilat, 3 ixrac dikborusundan və bir idxal dikborusundan ibarətdir. Dayaq bloku suyun 94 metr dərinliyində quraşdırılacaq. Blok "BOS Shelf", "Star Gulf" və "Saipem" konsorsiumları tərəfindən inşa edilib. Tikinti işləri iki il davam edib. Bu dayaq bloku Xəzərdə ən çox dikboru sayına malikdir. Blokun konstruksiyasının daşınması, suya endirilməsi, yerləşdirilməsi və payalarla quraşdırılması işləri diqqətlə planlaşdırılıb. Bu işlərin təxminən 40 gün ərzində yekunlaşdırılması nəzərdə tutulur. Dayaq blokunun tikintisi cədvələ uyğun tamamlanıb və 2016-cı il iyulun 29-da dənizə yola salınmaq üçün uğurla Bakı dərin özüllər zavodunun yanalma körpüsündəki daşıma barjına yüklənib. Blok zavod ərazisində yerli infrastruktur və obyektlərdən istifadə edilməklə, bütövlüklə ölkə daxilində inşa edilib. Tikinti işlərinə subpodratçılar və ixtisaslaşmış təchizatçılar da daxil olmaqla, 5 mindən çox işçi cəlb edilib. Tikintiyə cəlb olunmuş işçi qüvvəsinin təxminən 90 faizi Azərbaycan vətəndaşları olub.

Onu da deyək ki, ilk dəfə olaraq "Şahdəniz-2" platformalarının tikintisinin 100 faizi ölkə daxilində həyata keçirilir. Tikinti işləri beynəlxalq standartlara uyğun şəkildə tam modernləşdirilmiş dünya səviyyəli istehsalat obyektləri olan Heydər Əliyev adına Bakı dərin özüllər zavodunda və "Amec-Tekfen-Azfen" tikinti-quraşdırma sahəsində həyata keçirilib. Xəzərdə ən böyük dayaq bloklarından biri olan "Şahdəniz-2" dayaq blokları yerli şirkət olan "BOS Shelf"in üzv olduğu konsorsium tərəfindən Bakı dərin özüllər zavodunda inşa edilir. "Şahdəniz-2" və "Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsi" layihələrinin əsas töhfələrindən biri tikinti fazası ərzində minlərlə iş yerinin açılmasıdır. Bu vaxtadək Azərbaycanda bütün əsas müqavilələr üzrə tikinti işlərinə 24 min nəfərdən artıq insan cəlb edilib və onların 80 faizdən çoxu Azərbaycan vətəndaşı olub.

Sonra Prezident İlham Əliyev kollektiv ilə görüşüb.

Sonda xatirə şəkli çəkdirilib.

**Dağ Yahudiləri dini icmasının rəhbərinə "Şöhrət" ordeni təqdim edilib**



səh. 4



"Media və din" mövzusunda konfrans keçirilib

səh. 6

**"Milli-mənəvi dəyərlərə hörmət, dini radikalizmə nifrət!"**

səh. 3

**Gündüz İsmayılov: "Multikultural və tolerant dəyərlər Azərbaycanın mənəvi sərvətidir"**

səh. 8

QMİ-nin sədri Çeçenistanda beynəlxalq konfransda iştirak edib

səh. 5

**Qurban bayramının sosial əhəmiyyəti**

səh. 15

# Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı



Azərbaycanda yüzillər boyu bərqərar olmuş tolerantlıq mühiti XIX əsrin əvvəllərində buraya köçürüldükləri ilk vaxtlardan alman mühacirlərinin yerli əhali ilə qısa müddətdə dərin ünsiyyət qurması üçün əlverişli zəmin yaratmışdır. Məskunlaşdıqları və qaynayıb qarışdıqları bu yerləri İkinci Dünya müharibəsi dövründə tərk etmək məcburiyyətində qalsalar da, onların özlərindən sonra qoyub getdikləri tarixi-mədəni irsi Azərbaycan xalqı multikultural təbiətinə sadiqlik nümayiş etdirərək lazımınca qoruyub saxlamışdır. Bir-birinin milli dəyərlərinə qarşılıqlı hörmət və ehtiram Azərbaycan və alman xalqlarının mədəni əlaqələrini səciyyələndirən başlıca cəhətdir. Alman şərqşünasları Azərbaycan xalqının möhtəşəm söz sənəti yadigarlarının dünya elm aləminə tanıdılmasında mühüm xidmətlər göstərmiş, alman memarları isə Azərbaycanda şəhərsalma mədəniyyətinə dəyərli töhfələr vermişlər.

2017-ci ildə Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyi tamam olur. Azərbaycan xalqının tarixi və mədəniyyətində dərin iz qoymuş bu hadisənin UNESCO-nun "2016–2017-ci illər üçün görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri proqramı"na daxil edilməsi təqdirə layiqdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycanın multikultural ənənələrə malik çoxəsrlik tolerantlıq məkanı kimi təbliğində böyük əhəmiyyətini nəzərə alaraq, Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200-cü ildönümünün layiqincə qarşılanmasını təmin etmək məqsədi ilə qərara alıram:

**1.** Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyinə həsr olunmuş tədbirlərə dair xüsusi proqram hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev***
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 30 avqust 2016-cı il.*

# Təzəpir məscidi kompleksinin ətraf ərazisinin abadlaşdırılması ilə əlaqədar tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Xalqımızın mənəvi dəyərlərinə, tarixi-dini və mədəniyyət abidələrinə həssas münasibət müasir Azərbaycan Respublikasının dövlət siyasətinin mühüm prioritetlərindəndir. Son illərdə qədim dini abidələrin, ziyarətgahların bərpası ilə bağlı silsilə tədbirlər həyata keçirilmiş, dini-memarlıq incilərindən Bibiheybət və Əjdərbəy məscidləri, Şamaxı şəhərindəki Cümə məscidi Dövlət tarix-memarlıq abidəsi, Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisində yerləşən "İmamzadə" kompleksi yenidən qurulmuş, Bakı şəhərində "Heydər Məscidi" kompleksi inşa edilmişdir. Ölkə müsəlmanlarının başlıca ibadət mərkəzi olan Təzəpir məscidində dövlətin dəstəyi ilə əsaslı yenidənqurma işləri aparılmışdır.

Bununla yanaşı, XX əsrin əvvəllərində Bakı şəhərinin mərkəzi hissəsində, əhalinin sıx məskunlaşdığı ərazidə inşa edilmiş Təzəpir məscidi ətrafındakı yol infrastrukturunun hazırda köhnəlməsi və bir çox tikililərin qəzalı vəziyyətə düşməsi nəticəsində məscid yaxınlığında nəqliyyat vasitələrinin və piyadaların normal hərəkəti məhdudlaşmışdır ki, bu da yerli sakinlərin narahatlığına səbəb olmuş, dindarlar tərəfindən məbədin istifadəsini və ölkəmizin qonaqlarının həmin abidəni ziyarət etməsini xeyli çətinləşdirmişdir.

Təzəpir məscidinin Azərbaycanın və ümumən Qafqazın mühüm dini mərkəzlərindən biri olduğunu nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

**1.** Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Təzəpir məscidi kompleksinin ətrafındakı yol-nəqliyyat infrastrukturunun yenidən qurulması, ərazisinin abadlaşdırılması, məscidi ziyarət edənlər üçün parklama imkanlarının yaradılması işlərinin həyata keçirilməsi üçün "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinə ilkin olaraq 5,0 (beş) milyon manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.



***İlham Əliyev***
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 5 avqust 2016-cı il.*

# Dağ Yəhudiləri dini icmasının rəhbərinə "Şöhrət" ordeni təqdim edilib

Avqustun 24-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) Prezident İlham Əliyevin Milix İlxananoviç Yevdayevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında imzaladığı Sərəncama əsasən ordenin təqdimetmə mərasimi keçirilib.

Tədbirdə Milli Məclisin deputatı Yevda Abramov, Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini, Azərbaycanın baş müftisi Hacı Salman Musayev, Rus Pravoslav Kilsəsinin Bakı-Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein, Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili, Gürcü Yəhudilərinin Bakı dini icmasının sədri Abik Çaruxçev, eləcə də Azərbaycanda fəaliyyət göstərən digər dini konfessiyaların nümayəndələri iştirak ediblər.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Milix Yevdayevin ölkəmizdə multikultural, tolerant ənənələrin qorunması istiqamətindəki xidmətlərindən danışıb. O bu xidmətlərin Azərbaycan Prezidenti tərəfindən yüksək qiymətləndirildiyini vurğulayıb. Azərbaycanda müxtəlif dini konfessiyaların əsrlərdir sərbəst və qarşılıqlı anlaşma şəraitində fəaliyyət göstərdiklərini



deyən M.Qurbanlı bildirib ki, pravoslav və katolik kilsələri, sinaqoqlar, Atəşgah məbədi – bütün bunlar Azərbaycanın mədəni irsinin tərkib hissəsidir. Dini konfessiyaların fəaliyyəti barədə məlumat verən Komitə sədri yəhudilərin Azərbaycanda məskunlaşma tarixindən danışıb.

Sonra "Şöhrət" ordeni Milix Yevdayevə təqdim olunub.

Dağ Yəhudiləri dini icmasının rəhbəri Milix Yevdayev onun fəaliyyətinə verilən bu qiymətə görə dövlətimizin başçısına minnətdarlığını bildirib. Daim Azərbaycan dövlətinin möhkəmlənməsinə xidmət etdiyini deyən M.Yevdayev Azərbaycanın tolerantlıq rəmzi olduğunu və burada bütün dinlərin nümayəndələrinə eyni münasibətin göstərildiyini vurğulayıb. O bildirib ki, Azərbaycanda məskunlaşmasının 2000 ildən çox tarixi olan yəhudilərə həmişə doğma münasibət olub. Digər konfessiyalar kimi, yəhudi icmasının nümayəndələri də öz dini ayinlərini və adət-ənənələrini azad şəkildə həyata keçirirlər.

Hacı Salman Musayev Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadənin salamlarını və təbrikini çatdıraraq deyib ki, ölkəmizdə dövlət-din münasibətləri yüksək səviyyədədir. O, dini icmalara Ulu Öndər Heydər Əliyevin diqqət və qayğısından danışaraq bildirib ki, məhz Ümummilli Lider müstəqilliyinə qovuşmuş Azərbaycanda dini mədəniyyətin, tolerantlığın və dinlərarası dialoqun proqram əsaslarının təməlini qoyub. Hazırda bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Daha sonra çıxış edən Milli Məclisin deputatı Yevda Abramov, Rus Pravoslav Kilsəsinin Bakı-Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein, Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili, Gürcü Yəhudilərinin Bakı dini icmasının sədri Abik Çaruxçev Azərbaycanda mövcud olan multikultural və tolerantlıq ənənələrindən danışıb, Prezident İlham Əliyev tərəfindən Milix Yevdayevin belə mötəbər ordenlə təltif edilməsini dövlətimizin dini konfessiyalara, qeyri-İslam dini icmalarına göstərdiyi yüksək diqqət və qayğısının təzahürü kimi dəyərləndiriblər.

# "Milli-mənəvi dəyərlərə hörmət, dini radikalizmə nifrət!"



**Silahlı Qüvvələrdə "Milli-mənəvi dəyərlərə hörmət, dini radikalizmə nifrət!" devizi altında silsilə tədbirlər aylığına start verilib.**

**Şəmkirdəki "N" saylı hərbi hissədə keçirilən ilk tədbirin iştirakçıları əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin qərargahın qarşısında ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyublar. Heydər Əliyev Mərkəzində Ulu Öndərin mənalı ömür yolu və xalqa həsr olunmuş möhtəşəm xidmətlərini əks etdirən ekspozisiya qonaqlarda xoş təəssürat oyadıb.**

Tədbir iştirakçıları Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin xətti ilə nəşr olunan kitabların sərgisinə maraqla baxıblar.

Əsgər klubunda Silahlı Qüvvələrdə silsilə tədbirlər aylığının açılışına həsr edilən mərasimdə Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi hörmət və ehtiramla anılıb, Dövlət himni səsləndirilib.

Müdafiə Nazirliyinin zabiti, polkovnik Abdulla Qurbani çıxış edərək keçiriləcək tədbirlər haqqında ətraflı məlumat verib. Bildirilib ki, Müdafiə Nazirliyinin rəhbərliyi Silahlı Qüvvələrin şəxsi heyətinin milli-mənəvi dəyərlər əsasında tərbiyəsinə xüsusi önəm verir və bu istiqamətdə məqsədyönlü iş aparılır. Hər bir komandir, şəxsi heyətlə iş üzrə zabit yaxşı bilir ki, xalqımızın əsrlər boyu yaratdığı və qoruduğu milli-mənəvi dəyərləri mənimsəmədən, ona yaxından bələd olmadan əsl vətəndaş, əsl döyüşçü yetişdirmək mümkün deyil.

Qeyd olunub ki, uzun illərdən sonra xalqımıza qələbə sevinci yaşadan Azərbaycan əsgərinin aprel döyüşlərindəki zəfərinin əsas amillərindən biri də şəxsi heyətin döyüş ruhunun, vətənpərvərlik hissinin, hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə olması idi. Bu isə Silahlı Qüvvələrdə tərbiyə işində milli-mənəvi dəyərlərə geniş yer verilməsinin nəticəsidir.

Dini radikalizm isə bu gün bəşər üçün ən böyük təhlükə mənbəyidir və separatizmə, terrorizmə aparan faciəvi yolun başlanğıcıdır. Heç bir ölkə və xalq dini radikalizmdən sığortalanmayıb. Odur ki, dini radikalizmə qarşı mübarizədə hər bir şəxs, eləcə də hərbi qulluqçular daim ayıq-sayıq olmalı, təsirlərə düşməməli və bu yolun həm özləri, həm ailələri, həm də vətəndaşı olduqları dövlət üçün təhlükəli olduğunu dərk etməlidirlər.

DQİDK-nın sədri Mübariz Qurbanlı bu istiqamətdə Silahlı Qüvvələrdə aparılan işin təqdirəlayiq olduğunu bildirib, Müdafiə Nazirliyi ilə rəhbərlik etdiyi qurumun birgə planına əsasən keçirilən tədbirlərin əhəmiyyətini qeyd edib.

Komitə sədri bu günlərdə uğurla başa çatan "Milli-mənəvi dəyərlərimizi yad təsirlərdən qoruyaq!" tolerantlıq və multikulturalizm həftəsi çərçivəsində keçirilən tədbirlərdə minlərlə hərbi qulluqçunun, ilahiyyatçının, Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndələrinin, DQİDK-nın əməkdaşlarının iştirakını, hətta cəbhə bölgələrində, ön səngərlərdə tədbirlərin təşkilini müsbət hal kimi qiymətləndirib.

O, əmin olduğunu bildirib ki, Müdafiə Nazirliyinin yeni layihəsi də öz müsbət bəhrəsini verəcək, şəxsi heyətin milli-mənəvi dəyərlərə hörmət, dini radikalizmə nifrət ruhunda tərbiyə edilməsində mühüm əhəmiyyət kəsb edəcəkdir.

Tədbirdə Şəmkir Rayon İcra Hakimiyyəti başçısının müavini Fəxrəddin Vəliyev, Müdafiə Nazirliyinin əməkdaşları Rövşən Qarayev, Vüsal Hüseynov, dövlət qulluqçusu İlqar Orucov, Gəncə Şah Abbas məscidi dini icmasının sədri Hacı Əlisəftər, Şəmkir şəhər Cümə məscidi dini icmasının sədri Hacı Natiq və başqaları çıxış edərək mövzu ilə bağlı fikirlərini bildiriblər.

Hərbi hissə komandirinin müavini polkovnik Nemət Babayev qonaqları salamlayıb və şəxsi heyətin milli-mənəvi dəyərlər əsasında tərbiyə olunmasında Müdafiə Nazirliyi rəhbərliyinin və DQİDK-nın xidmətlərini xüsusi vurğulayıb. Bu kimi tədbirlərin Silahlı Qüvvələrin şəxsi heyətinin qarşıya qoyulmuş tapşırıqların yerinə yetirilməsində müstəsna rol oynadığını qeyd edib və dünyanı narahat edən bir çox dini cərəyanların Azərbaycan Ordusuna sirayət etmədiyini, lakin dini radikalizmə qarşı mübarizə tədbirlərinin də yüksək səviyyədə təşkil olunduğunu nəzərə çatdırıb.

Sonra Dövlət Komitəsinin sifarişi ilə hazırlanmış "Fitnə" sənədli filminə kütləvi baxış olub və tamaşaçılar film haqqında fikir və təkliflərini bildiriblər.

Tədbirin sonunda qonaqlar əsgəri xidmət üçün yaradılan şəraitlə tanış olub, əsgər və zabitlərlə görüşüb, hərbi hissədən xoş təəssüratla ayrılıblar.

Göyçay rayonunda "Multikultural və tolerant dəyərlərimiz: tarixilik, varislik, müasirlik" mövzusunda seminar-müşavirə keçirilib.

Avqustun 30-da Göyçay rayonunda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Göyçay Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Multikultural və tolerant dəyərlərimiz: tarixilik, varislik, müasirlik" mövzusunda seminar-müşavirə keçirilib.

Heydər Əliyev Mərkəzində təşkil olunan tədbirin iştirakçıları Ulu Öndərin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüblər. Sonra Heydər Əliyev Mərkəzi ilə tanışlıq olub. Seminar-müşavirədə rayon rəhbərliyi, hüquq-mühafizə orqanlarının əməkdaşları, dini icmaların rəhbərləri, din xadimləri, ilahiyyatçılar, ictimaiyyət nümayəndələri, ziyalılar və gənclər iştirak ediblər.

Əvvəlcə dini ekstremizm və radikalizmin fəsadlarından bəhs edən "Fitnə" sənədli filmi nümayiş olunub.

Azərbaycanın multikulturalizm ənənələrinin daha dərindən mənimsənilməsi, milli-mənəvi dəyərlərin qorunub saxlanılması və təşviqi, eləcə də bu sahədə qarşıda duran vəzifələrin müzakirə edilməsi məqsədilə keçirilən tədbirdə çıxış edən DQİDK sədri Mübariz Qurbanlı ölkəmizdə müxtəlif dinlərin və azsaylı xalqların nümayəndələrinin yaşadığını və dini konfessiyaların uzun əsrlərdən bəri sərbəst və qarşılıqlı anlaşma şəraitində fəaliyyət göstərdiyini bildirib. O qeyd edib ki, ölkəmizdə hər zaman başqa xalqların dilinə, dininə, mədəniyyətinə daim hörmətlə yanaşılıb.

M.Qurbanlı bildirib ki, Azərbaycanda hökm sürən multikultural və tolerant mühitin, ideoloji prinsiplərin ana xəttini Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi




Azərbaycançılıq təşkil edir. Dünyanın hansı ölkəsində yaşamağımızdan asılı olmayaraq, bizi bu prinsiplər birləşdirir. Eyni zamanda, Azərbaycan İslam ölkəsidir və mənəvi dəyərlərimizin tərkib hissəsi olan İslam dininə dünyada bir milyarddan çox insan etiqad edir. Biz də bu dəyərlərə sahib ölkələrdən biri kimi İslamı yad təsirlərdən qorumalıyıq. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xalqımızın milli-mənəvi dəyərlərinə qayıdışı sürətlənib. Bu gün ölkəmizdə dinlərarası münasibətlər ən yüksək səviyyədədir. Hər kəsin etiqad azadlığı təmin olunur. Bununla yanaşı, milli-mənəvi dəyərlərimizin tərkib hissəsi olan, o cümlədən ölkə əhalisinin əksəriyyətinin etiqad etdiyi İslam dini və mədəniyyətinin təbliği prioritet məsələlərdəndir.

Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev mütəmadi olaraq dini icmaların liderləri ilə görüşür, onların ehtiyac və problemləri ilə maraqlanır. Dövlətin bu sahədə yürütdüyü siyasət nəticəsində Azərbaycan cəmiyyətində dinlərarası münasibətdə dözümlülük özünü bariz şəkildə göstərir və bunun nəticəsində etnik, dini nifrət hissi mövcud deyil. Həyata keçirilən uğurlu daxili və xarici siyasət sayəsində multikulturalizm və tolerantlıq xalqımızın həyat tərzinə çevrilib. Dövlətimizin başçısının müvafiq Sərəncamı ilə 2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili" elan olunduğunu xatırladan Komitə sədri onu da qeyd edib ki, bu, Azərbaycan xalqının digər millətlərlə dostluq, qardaşlıq şəraitində yaşadığını bütün dünyaya bir daha nümayiş etdirir. Çoxmillətli, çoxkonfessiyalı respublika kimi ölkəmizdə bütün xalqların, dinlərin, etnik qrupların nümayəndələri eyni hüquq və azadlığa malikdir.

Konfransda Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadə çıxış edərək Azərbaycanda dövlət-din münasibətlərinin əsasının Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulduğunu, bu gün isə həmin münasibətlərin bütün hüquqi dövlətlərdə olduğu kimi qanunlarla tənzimləndiyini vurğulayıb. Bildirib ki, ölkədə ali hüquqi qüvvəyə malik Azərbaycan Respublikasının Konstitusiyası fəaliyyət göstərir. Konstitusiyada beynəlxalq hüququn hamılıqla tanındığı norma və prinsiplər əksini tapmaqla yanaşı, bütün növ fundamental insan, vətəndaş hüquq və azadlıqları təsbit edilib. Bu gün Azərbaycanda bütün dinlərin qanunvericiliyə uyğun azad və sərbəst fəaliyyətinə icazə verilir.

Daha sonra Milli Məclisin deputatı Elman Nəsirov, Qafqaz Müsəlmanları İdarəsinin nümayəndəsi, Göyçayın "Yuxarı məscid" dini icmasının sədri Rəsul Kazımov çıxış ediblər. Bildirilib ki, Prezident İlham Əliyevin apardığı doğru, düzgün və məqsədyönlü siyasət nəticəsində multikulturalizm Azərbaycanın dövlət siyasətinə, xalqımızın həyat tərzinə çevrilib. Azərbaycan milli dövlət olaraq təkcə özünün deyil, dünyanın qlobal problemlərinin həllində fəal iştirak edir. Bu il BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun Bakıda keçirilməsi bunun bariz nümunəsidir.

Sonda mövzu ətrafında müzakirələr aparılıb və iştirakçıların sualları cavablandırılıb.

Seminar-müşavirədən sonra Komitə sədri Mübariz Qurbanlı Göyçay şəhərindəki məscidləri ziyarət edib, dini icmaların fəaliyyəti ilə tanış olub, məscidlərə kitablar hədiyyə edib.

## “Multikultural və tolerant dəyərlərimiz: tarixilik, varislik, müasirlik”

# Göyçayda seminar-müşavirə




**Göyçay rayonunda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Göyçay Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə avqustun 30-da “Multikultural və tolerant dəyərlərimiz: tarixilik, varislik, müasirlik” mövzusunda seminar-müşavirə keçirilib.**

Heydər Əliyev Mərkəzində təşkil olunan tədbirin iştirakçıları Ulu Öndərin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüblər. Sonra Heydər Əliyev Mərkəzi ilə tanışlıq olub. Seminar-müşavirədə rayon rəhbərliyi, hüquq-mühafizə orqanlarının əməkdaşları, dini icmaların rəhbərləri, din xadimləri, ilahiyyatçılar, ictimaiyyət nümayəndələri, ziyalılar və gənclər iştirak ediblər.

Seminar-müşavirədə əvvəlcə dini ekstremizm və radikalizmin fəsadlarından bəhs edən “Fitnə” sənədli filmi nümayiş olunub.

Azərbaycanın multikulturalizm ənənələrinin daha dərindən mənimsənilməsi, milli-mənəvi dəyərlərin qorunub saxlanılması və təşviqi, eləcə də bu sahədə qarşıda duran vəzifələrin müzakirə edilməsi məqsədilə keçirilən tədbirdə çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ölkəmizdə müxtəlif dinlərin və azsaylı xalqların nümayəndələrinin yaşadığını və dini konfessiyaların uzun əsrlərdən bəri sərbəst və qarşılıqlı anlaşma şəraitində fəaliyyət göstərdiyini bildirib. O qeyd edib ki, ölkəmizdə hər zaman başqa xalqların dilinə, dininə, mədəniyyətinə daim hörmətlə yanaşılıb.

Mübariz Qurbanlı bildirib ki, Azərbaycanda hökm sürən multikultural və tolerant mühitin, ideoloji prinsiplərin ana xəttini Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi Azərbaycançılıq təşkil edir. Dünyanın hansı ölkəsində yaşamağımızdan asılı olmayaraq, bizi bu prinsiplər birləşdirir. Eyni zamanda, Azərbaycan İslam ölkəsidir və mənəvi dəyərlərimizin tərkib hissəsi olan İslam dininə dünyada bir milyarddan çox insan etiqad edir. Biz də bu dəyərlərə sahib ölkələrdən biri kimi İslamı yad təsirlərdən qorumalıyıq. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xalqımızın milli-mənəvi dəyərlərinə qayıdışı sürətlənib. Bu gün



ölkəmizdə dinlərarası münasibətlər ən yüksək səviyyədədir. Hər kəsin etiqad azadlığı təmin olunur. Bununla yanaşı, milli-mənəvi dəyərlərimizin tərkib hissəsi olan, o cümlədən ölkə əhalisinin əksəriyyətinin etiqad etdiyi İslam dini və mədəniyyətinin təbliği prioritet məsələlərdəndir.

Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev mütəmadi olaraq dini icmaların liderləri ilə görüşür, onların ehtiyac və problemləri ilə maraqlanır. Dövlətin bu sahədə yürütdüyü siyasət nəticəsində Azərbaycan cəmiyyətində dinlərarası münasibətdə dözümlülük özünü bariz şəkildə göstərir və bunun nəticəsində etnik, dini nifrət hissi mövcud deyil. Həyata keçirilən uğurlu daxili və xarici siyasət sayəsində multikulturalizm və tolerantlıq xalqımızın həyat tərzinə çevrilib. Dövlətimizin başçısının müvafiq Sərəncamı ilə 2016-cı ilin ölkəmizdə “Multikulturalizm ili” elan olunduğunu xatırladan Mübariz Qurbanlı qeyd edib ki, bu, Azərbaycan xalqının digər millətlərlə dostluq, qardaşlıq şəraitində yaşadığını bütün dünyaya bir daha nümayiş etdirir. Çoxmillətli, çoxkonfessiyalı respublika kimi ölkəmizdə bütün xalqların, dinlərin, etnik qrupların nümayəndələri eyni hüquq və azadlığa malikdir.

Konfransda Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadə çıxış edərək Azərbaycanda dövlət-din münasibətlərinin əsasının Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulduğunu, bu gün isə həmin münasibətlərin bütün hüquqi dövlətlərdə olduğu kimi qanunlarla tənzimləndiyini vurğulayıb. Bildirib ki, ölkədə ali hüquqi qüvvəyə malik Azərbaycan Respublikasının Konstitusiyası fəaliyyət göstərir. Konstitusiyada beynəlxalq hüququn hamılıqla tanındığı norma və prinsiplər əksini tapmaqla yanaşı, bütün növ fundamental insan, vətəndaş hüquq və azadlıqları təsbit edilib. Bu gün Azərbaycanda bütün dinlərin qanunvericiliyə uyğun azad və sərbəst fəaliyyətinə icazə verilir.

Daha sonra Milli Məclisin deputatı Elman Nəsirov, Qafqaz Müsəlmanları İdarəsinin nümayəndəsi, Göyçayın “Yuxarı məscid” dini icmasının sədri Rəsul Kazımov çıxış ediblər. Bildirilib ki, Prezident İlham Əliyevin apardığı doğru, düzgün və məqsədyönlü siyasət nəticəsində multikulturalizm Azərbaycanın dövlət siyasətinə, xalqımızın həyat tərzinə çevrilib. Azərbaycan milli dövlət olaraq təkcə özünün deyil, dünyanın qlobal problemlərinin həllində fəal iştirak edir. Bu il BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun Bakıda keçirilməsi bunun bariz nümunəsidir.

Sonda mövzu ətrafında müzakirələr aparılıb və iştirakçıların sualları cavablandırılıb.

Seminar-müşavirədən sonra Komitə sədri Mübariz Qurbanlı Göyçay şəhərindəki məscidləri ziyarət edib, dini icmaların fəaliyyəti ilə tanış olub, məscidlərə kitablar hədiyyə edib.

# Qazaxda regional konfrans keçirilib




**Avqustun 31-də Qazax rayonunda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Qazax Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “Multikultural və tolerant dəyərlərimiz: tarixilik, varislik, müasirlik” mövzusunda regional konfrans keçirilib.**

Əvvəlcə iştirakçılar Ümummilli Lider Heydər Əliyevin rayon mərkəzindəki abidəsini ziyarət ediblər.

Konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, Qafqaz Müsəlmanları İdarəsinin nümayəndəsi, eləcə də bölgədə fəaliyyət göstərən hüquq-mühafizə orqanlarının rəhbərliyi, dini işlər üzrə komissiyanın üzvləri, YAP rayon təşkilatının rəhbərliyi, dini icma sədrləri, din xadimləri, idarə və müəssisə rəhbərləri, ictimaiyyət nümayəndələri, gənclər iştirak ediblər.



Konfrans dini ekstremizm və radikalizmin fəsadlarından bəhs edən “Fitnə” sənədli filminin nümayişi ilə başlayıb.

Rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov konfransı açaraq bildirib ki, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində ölkəmizdə müxtəlif dinlərə etiqad edən insanlar mehriban və qarşılıqlı hörmət şəraitində yaşayırlar. Respublikamız dünyada tolerantlıq və multikulturalizm nümunəsinə çevrilib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı multikultural və tolerant dəyərlərimiz haqqında məlumat verib. Qeyd edib ki, Azərbaycan dünyada tolerant ölkə kimi tanınır və tolerantlıq bizim həyat tərzimizə çevrilib.

Dövlət Komitəsinin sədri diqqəti din pərdəsi altında aparılan münaqişələrə çəkərək bildirib ki, dünyada aparıcı güclər din amilindən geosiyasi maraqları üçün istifadə edir, İslamı siyasiləşdirərək qarşıdurma yaratmaqla onu gözdən salmağa yönələn siyasət həyata keçirirlər. Din amilindən siyasi vasitə kimi istifadə olunduğu bir dövrdə Azərbaycan dünyaya qlobal təhlükəsizlik məsələlərində töhfə verən bir ölkəyə çevrilib.

Komitənin sifarişi ilə hazırlanan “Fitnə” filmindən də danışan Mübariz Qurbanlı qeyd edib ki, sənədli filmdə dini radikalizmlə mübarizənin dini, psixoloji, hüquqi, siyasi və mənəvi tərəfləri işıqlandırılır.

Konfransda müxtəlif dini cərəyanlar və onların fəaliyyət metodları haqqında ətraflı məlumat verilib.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Qazaxda vətəndaşlarla görüşüb





Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu davam etdirirlər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı avqustun 31-də Qazax şəhərindəki Ədəbiyyat Muzeyində Ağstafa, Tovuz və Qazax rayonlarından olan sakinləri qəbul edib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Qazax şəhərindəki abidəsi önünə gül dəstəsi qoyulub, xatirəsi ehtiramla yad olunub.

Qəbulda vətəndaşlar əsasən dini icmaların fəaliyyəti, dövlət qeydiyyatına alınması, məscidlərin təmiri, dini mərkəzlərin müvafiq ədəbiyyatla təminatı və digər məsələlərlə bağlı müraciət ediblər. Komitə sədri onların hər birini diqqətlə dinləyib.

İyirmidən çox vətəndaşı qəbul edən Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bir sıra müraciətləri yerindəcə həll edib, bəzilərinin isə araşdırılması üçün göstərişlər verib. Komitənin səlahiyyət dairəsinə aid olmayan məsələlərə dair müraciətlər aidiyyəti qurumlara çatdırılması üçün qeydiyyata alınıb.

## Dövlət Komitəsinin sədri ABŞ-ın ölkəmizdəki səfirliyinin siyasi işlər üzrə müşaviri Uilyam Solleyi qəbul edib



**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı avqustun 1-də Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfirliyinin siyasi işlər üzrə müşaviri Uilyam Solleyi qəbul edib.**

Dövlət Komitəsinin sədri Azərbaycanda dövlət-din münasibətləri Konstitusiya və "Dini etiqad azadlığı haqqında" Qanunla tənzimləndiyini bildirib. Mübariz Qurbanlı qeyd edib ki, bu gün Azərbaycanın tolerant və multikultural dəyərlərə görə dünyada nümunə sayılan ölkələrdən biridir və bu dəyərlər dövlət səviyyəsində təbliğ və təşviq edilir. O deyib ki, Azərbaycanda din və məzhəb ayrı-seçkiliyinə yol verilmədən insanlar ibadətlərini sərbəst həyata keçirirlər. Dövlətin dini icmalara daim qayğı göstərdiyini vurğulayan Komitə sədri Prezident İlham Əliyev tərəfindən İslam və qeyri-İslam dini icmalara maliyyə vəsaitinin verilməsi ilə bağlı Sərəncamlar imzalandığını da qonağın diqqətinə çatdırıb.

Uilyam Solley Azərbaycanda fəaliyyətə yeni başladığını önə çəkərək Komitə sədrinə qəbula görə təşəkkürünü bildirib. O, Azərbaycanda dini durumun sabit olduğunu qeyd edərək dövlət-din, konfessiyalararası münasibətlərin vəziyyəti, ölkəmizdəki multikultural və tolerant mühit barədə fikirlərini bölüşüb.

Sonda tərəflər qarşılıqlı maraq doğuran məsələlər ətrafında müzakirələrin davam etdirilməsinin ölkələrimiz arasındakı dostluq münasibətlərinin daha da yaxşılaşması baxımından vacib olduğunu bildiriblər.

## QMİ-nin sədri Çeçenistanda beynəlxalq konfransda iştirak edib

**Avqustun 27-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə Çeçenistana səfər edib.**

**Səfər Qroznı şəhərində Çeçenistanın mərhum Prezidenti Əhməd Kadırovun anadan olmasının 65 illiyinə həsr olunmuş beynəlxalq konfransa dəvət əsasında həyata keçirilib.**

Çeçenistan Müsəlmanları Ruhani İdarəsinin təşkilatçılığı ilə keçirilən, İslam dünyasının tanınmış din xadimlərinin, alimlərin, Misir, İordaniya və digər müsəlman ölkələrinin nüfuzlu üləmalarının, habelə MDB ölkələrindən ümumən 150-dək qonağın iştirak etdiyi beynəlxalq konfransda A.Paşazadə məruzə ilə çıxış edib.

QMİ sədri hazırda dünyada cərəyan edən hadisələr fonunda din xadimlərinin zorakılıq hallarına, sülh və ədalətin pozulmasına qarşı daha artıq dərəcədə fəal çıxış etmək zərurətindən bəhs edib. O bildirib ki, sülh, qardaşlıq dini olan İslam adından müsəlman xalqlarına, onların müstəqil dövlətlərinə qarşı məkrli sui-istifadə halları, İslam adına ləkə gətirilməsi hiddət doğurur. Şeyxülislam qeyd edib ki, ekstremistlərin, təkfirçilərin, din adından istifadə edən sektaların, İŞİD və başqalarının məqsəd və məramlarının, cəmiyyət daxilinə nifaq salan, xalqların əsrlər boyu formalaşmış mənəvi köklərini məhv edən, ənənəvi dəyərlərinə və dövlətçiliyinə qarşı radikal addımlara sövq edən, gəncliyi psevdoislam ideyalarla zəhərləyərək alçaq niyyətlərinə alət edənlərin İslama, müsəlmanları narahat edən problemlərə heç bir dəxli yoxdur. Bunun qarşısının alınması üçün əsl İslam həqiqətləri ruhunda maarifçilik işinin genişləndirilməsi zəruridir.

Qarabağ probleminin sülh yolu ilə ədalətli həll olunmasının vacibliyi barədə fikirlərini səsləndirən A.Paşazadə iyirmi ildən artıq davam edən bu münaqişənin, ümumən, Qafqazın inkişafına



əngəl olduğunu vurğulayıb.

Şeyxülislam A.Paşazadə səfər çərçivəsində Rusiya Federasiyası Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovla da görüşüb.

QMİ-nin sədri həmçinin Qroznı şəhərində keçirilən Qafqaz Xalqları Ali Dini Şurasının iclasında iştirak edib. Şuranın sədri şeyxülislam Allahşükür Paşazadə Şimali Qafqaz müftiləri ilə bərabər görülmüş işlərin hesabatını dinləyib, həyata keçirilməsi qarşıda duran məsələləri müzakirə edib.

## "Gülənçilərlə bağlı məlumatı lazımi qurumlara çatdırmışıq"

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Fətullah Gülən terror təşkilatının Türkiyədən sonra ikinci ölkə olaraq Azərbaycanda daha çox yayılmasından danışıb.**

Komitə sədri "Qafqazinfo"ya açıqlamasında qeyd edib ki, Fətullah Gülən tərəfdarlarının məqsədi maarifçilik, din pərdəsi adı altında təşkilatı genişləndirmək, müxtəlif ölkələrdə öz təsir dairələrini yaratmaqdan ibarət idi: "Bu istiqamətdə çox işlər aparıblar. Azərbaycana da müstəqilliyimizin ilk illərində bu cür qruplar gəliblər. Maarifçilik, təhsil adı altında burada istinad nöqtələri yaratmışdılar. Hazırda bunların istinad nöqtələri Azərbaycanda aradan qaldırılıb və proses davam edir. Müxtəlif siyasi qrupların da onlarla işbirliyində olduğu barədə məlumatlar vardır.

"Gülənçi" adlanan terror təşkilatının Azərbaycanda uzantılarının olması haqqında məlumatlar həm türk mediasında, həm də yerli mediada var. Bununla bağlı Azərbaycan hüquq-mühafizə orqanları ciddi profilaktik tədbirlər həyata keçirməkdədir. Respublika Prokurorluğu "Gülənçi" qrupa qarşı cinayət işi qaldırıb. Komitə bütövlükdə bütün dini qruplarla bağlı məlumatlar əldə edərək vaxtında müvafiq orqanlara çatdırır. O cümlədən gülənçilərə yaxın olan qruplar barədə bizdəki məlumatları lazımi qurumlara çatdırmışıq və birgə fəaliyyətimiz davam etməkdədir.

Azərbaycanda hansısa təşkilatın dövləti yıxmaq, ictimai-siyasi sabitliyi pozmaq cəhdi yox dərəcəsindədir. Çünki bu gün Azərbaycan xalqı Prezident İlham Əliyevin siyasətini birmənalı olaraq dəstəkləyir. Belə olan şəraitdə hansısa təşkilatların fəaliyyəti nəticə verməyəcək".

## Bakı şəhəri Dağ yəhudiləri dini icmasına müqəddəs "Tövrat" hədiyyə olunub



Sentyabrın 1-də Bakıdakı "Dağ yəhudiləri"nin sinaqoqunda Amerika Yəhudi İcması ilə görüş keçirilib.

Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Milli Məclisin deputatları, Azərbaycandakı dini icmaların rəhbərləri, ölkəmizdə akkreditə olunmuş diplomatlar, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Görüşdə Amerika Yəhudi İcması adından Bakı şəhəri Dağ yəhudiləri dini icmasına müqəddəs "Tövrat" hədiyyə olunub.

# "Media və din" mövzusunda konfrans keçirilib



**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Avqustun 18-də "Multikulturalizm ili" çərçivəsində "Media və din" mövzusunda konfrans təşkil edilib.**

Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov, "Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov, Milli Məclisin deputatı Fazil Mustafa, ölkəmizdə fəaliyyət göstərən media qurumlarının dini mövzularda yazan əməkdaşları və mütəxəssislər iştirak ediblər.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı konfransın əhəmiyyətindən bəhs edərək bildirib ki, bu gün dini mövzuda yazan kifayət qədər jurnalist var. Lakin jurnalistlər bu yönümlü yazıları hazırlayarkən dindən sui-istifadə, dini siyasiləşdirməyə cəhd, dinlərin daxilində ayrı-ayrı cərəyanların meydana gəlmə hallarını nəzərə almalı, diqqətli olmalı və bu mövzuya həssaslıqla yanaşmalıdırlar. O qeyd edib ki, hazırlanan yazılarda xalqın dini inancı ilə bağlı daxili senzuraya riayət edilməlidir.

Sədr deyib ki, Azərbaycanda dövlət-din münasibətləri normal məcrada inkişaf edir. Azərbaycan çoxkonfessiyalı ölkədir və burada ayrı-ayrı dini konfessiyalar bərabər şəkildə fəaliyyət göstərir. Azərbaycanda dövlət-din münasibətlərinin həyata keçirilməsində qarşıda iki mühüm vəzifə dayandığını bildirən Mübariz Qurbanlı bunlardan birincisinin dini radikal qruplara qarşı ideoloji sahədə mübarizəni gücləndirmək və burada medianın rolunu artırmaq, digərinin isə dini xurafata qarşı mübarizə aparmaqdan ibarət olduğunu qeyd edib.

Əflatun Amaşov bu cür konfransların keçirilməsinin əhəmiyyətini önə çəkərək bildirib ki, Azərbaycan tolerant ölkədir və respublikamızda mövcud olan bu mühitin təbliğində medianın rolu böyükdür. O qeyd edib ki, xarici qüvvələrin dindən sui-istifadə cəhdlərinin qarşısının alınmasında media nümayəndələrimizin fəaliyyəti xüsusi önəm daşıyır.

Bəxtiyar Sadıqov milli-mənəvi, dini dəyərlərimizin təbliğ və təşviq edilməsində, dinin düzgün formada ictimaiyyətə çatdırılmasında media təmsilçilərinin üzərinə böyük öhdəlik düşdüyünü deyib. O bildirib ki, jurnalistlər dinimizin təbliğini məhz bu istiqamətdə təşkil etməli, dini radikalizmlə mübarizədə daha fəal olmalı, terrorizmə və ekstremizmə qarşı tənqidi mövqelərini açıq-aydın şəkildə nümayiş etdirməlidirlər.

Çıxışlarda, həmçinin qeyd olunub ki, dini mövzuda yazmaq vicdanla, insani duyğularla bağlı məsələdir. Jurnalistlər arasında bu sahədə ixtisaslaşmanın aparılması vacibdir.

Konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov "Mövcud dini durum və media", ADA Universitetinin müəllimi, dinşünas-alim Nəriman Qasımoğlu isə "Dinlərdə multikultural dəyərlər və onun mediada təbliği" mövzularında çıxış ediblər.

Tədbir işini müzakirələrlə davam etdirib.

# "Dini radikalizm və xurafat – bir medalın iki üzü"





**Avqustun 29-da Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Dini radikalizm və xurafat – bir medalın iki üzü" mövzusunda "dəyirmi masa" keçirilib.**

Tədbirdə DQİDK-nın, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ), Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) nümayəndələri, media təmsilçiləri, eləcə də ilahiyyatçılar, ziyalılar və gənclər iştirak ediblər.

DQİDK sədrinin müavini Gündüz İsmayılov çıxış edərək tədbirin keçirilməsində məqsədin dini radikalizm və onun fəsadları, bu bəlanın qurbanına çevrilən insanlar, xurafat və onun törətdiyi fəsadlarla bağlı müzakirələr təşkil etmək və bu sahədə fikir mübadiləsi aparmaq olduğunu bildirib. Sədr müavini Dövlət Komitəsi tərəfindən dini radikalizm və xurafata qarşı hüquq-mühafizə orqanları, QMİ, eləcə də digər aidiyyəti qurumlarla birgə aparılan mübarizə tədbirlərindən danışıb. O bildirib ki, dini radikalizm və xurafat cəmiyyətin inkişafına mane olur və onların qarşısının alınması maarifləndirmədən, İslamı düzgün formada, olduğu kimi cəmiyyətə çatdırmaqdan asılıdır. Dini radikalizm və xurafat arasında ciddi fərq olmadığını deyən Gündüz İsmayılov hər iki məfhumun mahiyyət etibarilə eyni dərəcədə zərərli olduğunu vurğulayıb.

Onun sözlərinə görə, əgər din pərdəsi altında qadın hüquqlarına təhdidlər, erkən nikahla bağlı problemlər, eyni zamanda dünyəvi təhsilə qarşı kiçik qruplar tərəfindən də olsa çıxışlar varsa, bunlar da xurafatla mübarizə çərçivəsində nəzərdə tutulan məsələlərə aiddir.

Dini radikalizm və xurafatla mübarizədə KİV-in də üzərinə böyük missiya düşdüyünü önə çəkən sədr müavini bu sahədə medianın böyük potensiala malik olmasından və bu imkanlardan istifadənin vacibliyindən danışıb.

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Aparat rəhbəri Simran Həsənov bildirib ki, vaxtında qarşısı alınmazsa, xurafat dini radikalizmə aparıb çıxarır. O deyib ki, din kimi həssas mövzudan yazmaq üçün jurnalistlərin müəyyən hazırlığı olmalıdır. Təəssüf ki, xurafat, dini radikalizmlə mübarizə adı altında da bəzi media orqanlarında işıq üzü görən yazılar əslində əks məqsədə xidmət edir. QMİ tərəfindən jurnalistlər üçün 2-3 günlük seminar keçirilməsinə ehtiyac var.

Sonra çıxış edən AMEA-nın Fəlsəfə İnstitutunun Dinşünaslıq və mədəniyyətin fəlsəfi problemləri şöbəsinin müdiri Sakit Hüseynov, həmin şöbənin aparıcı elmi işçisi Elsevər Səmədov, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin şöbə müdiri Rəşad İlyasov, yazıçı-publisist Xanəmir Telmanoğlu, ilahiyyatçı İlqar İsmayılzadə dini radikalizm və xurafatla mübarizədə maarifləndirmə işinə xüsusi diqqət yetirilməsinin vacibliyini vurğulayıblar.

Tədbir müzakirələrlə davam edib.

## Bölgələrdə falçılığa qarşı yoxlamalara başlanıb

Avqustun 16-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin müvafiq bölgə şöbələri Daxili İşlər Nazirliyinin yerli bölmələri ilə birlikdə Ucar və Şamaxı rayonlarında falçı adı altında fəaliyyət göstərən şəxslərə qarşı yoxlama tədbirləri həyata keçirib. Əməliyyatın keçirilməsində əsas məqsəd son günlər KİV-də falçılıq adı altında fəaliyyət göstərən şəxslərlə bağlı məlumatların yer almasıdır.

Yoxlama tədbirləri zamanı falçılıq adı altında fəaliyyət göstərən Ucar rayonu Qaracallı kənd sakini Məlahət Qafarova və Şamaxı rayon sakini Sveta İsmayılova müəyyən edilərək dindiriliblər. Dindirilmə zamanı hər iki şəxslə mövcud qanunvericilik barəsində söhbət aparılıb, adıçəkilən şəxslərin qanunazidd fəaliyyətləri nəticəsində əldə ediləcək əmlakın inzibati və cinayət məsuliyyəti yaradacağı ilə bağlı xəbərdarlıq edilib. Hər iki şəxs yol verdikləri əməldən peşman olduqlarını və bu fəaliyyətlə bir daha məşğul olmayacaqlarını bildiriblər.

Qeyd edək ki, dələduzluq faktı əsasında falçılıq fəaliyyəti ilə məşğul olan və saxtakarlıq edərək əhalinin pulunu mənimsəyən şəxslərə qarşı Azərbaycan Respublikasının İnzibati Xətalar və Cinayət Məcəlləsinə uyğun olaraq respublikanın digər bölgələrində də hüquq-mühafizə orqanları ilə birlikdə bu kimi halların qarşısının alınması üçün tədbirlər davam etdiriləcəkdir.

Vətəndaşların diqqətinə çatdırılır ki, aldadılaraq inamından sui-istifadə olunan, pulu mənimsənilən şəxslər mütləq şəkildə hüquq-mühafizə orqanlarına müraciət etsinlər.

# Dini radikalizmlə mübarizə çərçivəsində növbəti seminar-müşavirələr keçirilib




***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) dini radikalizm və ekstremizmlə mübarizədə milli-mənəvi dəyərlərimizin təbliği, tolerant və multikultural ənənələrimizin, eləcə də ənənəvi İslamın təşviqi məqsədilə hərtərəfli maarifçilik işini özündə ehtiva edən kompleks tədbirləri həyata keçirməyi davam etdirir. Bu silsilədən "Dini radikalizmlə mübarizədə dini icmaların fəaliyyətinin təşkili" mövzusunda növbəti seminar-müşavirələr avqustun 15-də Şamaxı, 16-da İsmayıllı, 25-də Qax, 26-da isə Oğuz rayonunda baş tutub.***



## Şamaxı

Tədbirdə DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev, QMİ-nin Şamaxı və Qobustan rayonları üzrə səlahiyyətli nümayəndəsi Mərəhməd Mustafayev, dini icma sədrləri, rayon ağsaqqalları, dindarlar, ziyalılar və gənclər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Şamaxı RİH-nin başçısı Asif Ağayev rayondakı mövcud dini



durum və bu sahədə görülmüş işlər barədə məlumat verərək ölkəmizdə mövcud olan tolerantlıq mühitindən, eləcə də ölkə rəhbərliyinin dindarlara qayğısından bəhs edib.

Daha sonra Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı çıxış edərək Azərbaycanda dövlət-din münasibətləri və bu istiqamətdə görülən işlər barədə geniş məlumat verib. S.Salahlı respublikamızda dövlət-din münasibətlərinin daha yüksək səviyyədə tənzimlənməsi, dini maarifləndirmə işinin təşkili və həyata keçirilməsi, həmçinin cəmiyyətdə radikalizm meyillərinin qarşısının alınması sahəsində dövlətin həyata keçirdiyi tədbirləri müşavirə iştirakçılarının nəzərinə çatdırıb.

QMİ-nin Şamaxı və Qobustan rayonları üzrə səlahiyyətli nümayəndəsi Mərəhməd Mustafayev isə öz çıxışında dövlət rəhbərliyinə dindarlara göstərdiyi qayğı üçün təşəkkürünü bildirib. O, Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan dövlət-din münasibətlərinin bu gün ölkəmizin inkişafına böyük töhfə verdiyini və dindarların daima bütün məsələlərdə dövlətin yanında olduğunu söyləyib.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

## İsmayıllı

Tədbirdə DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, İsmayıllı Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Rövşən Ağayev, QMİ-nin İsmayıllı rayonu üzrə səlahiyyətli nümayəndəsi Şahzadə Bilalov, dini icma sədrləri, rayon ağsaqqalları, dindarlar, ziyalılar və gənclər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan İsmayıllı RİH başçısının birinci müavini Rövşən Ağayev rayondakı mövcud dini durum və bu sahədə görülmüş işlər barədə məlumat verib. Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı isə öz çıxışında Azərbaycanda dövlətin dinə qayğısından, ölkəmizdə radikalizm meyillərinin yaranması səbəblərindən, bu meyillərin yayılmasında maraqlı olan qüvvələrdən danışıb. Eyni zamanda, ölkəmizdə dini ekstremizmə qarşı keçirilən çoxşaxəli maarifləndirmə tədbirləri barədə iştirakçıları məlumatlandırıb, aidiyyəti dövlət qurumları ilə koordinasiyalı fəaliyyətin, məlumat mübadiləsinin daha da gücləndirilməsinin, bu sahədə dini icma rəhbərlərinin üzərinə düşən işin önəmini vurğulayıb.

Daha sonra QMİ-nin İsmayıllı rayonu üzrə səlahiyyətli nümayəndəsi Şahzadə Bilalov dövlət rəhbərliyinə dindarlara göstərdiyi qayğı üçün təşəkkürünü bildirib.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

## Qax

Tədbirdə DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, Qax Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Tahir İsmayılov, rayonda fəaliyyət göstərən dini icma sədrləri, din xadimləri, rayon ağsaqqalları, ziyalılar və gənclər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Qax RİH başçısının birinci müavini Tahir İsmayılov rayondakı dini durum barədə məlumat verib. O bildirib ki, Qax rayonu Azərbaycanda müxtəlif xalqların, müxtəlif dini konfessiyaların, icmaların, o cümlədən müxtəlif etnosların birgə yaşadığı ən nümunəvi bölgələrdən biri sayılır. Rayonda alban məbədlərinin, məscidlərin, gürcü kilsəsinin, digər dini ayinlərin icra edildiyi ziyarətgahların mövcud olduğu və birgə fəaliyyət göstərdiyi hamıya yaxşı bəllidir.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı çıxış edərək ölkəmizdə milli-mənəvi və İslam dəyərlərinin qorunması, təbliği sahəsində görülən işlərdən bəhs edib. Qeyd olunub ki, Azərbaycan tolerant ölkədir və burada bütün dinlərin nümayəndələri azad şəraitdə yaşayırlar. Azərbaycan dövlətinin tarixən ölkəmizdə mövcud olan və keçmişdən bizə miras qalan mütərəqqi dini ənənələrin yaşadılması və inkişafı ilə əlaqədar gördüyü işlərdən bəhs edən Komitə rəsmisi, eyni zamanda gənclərin, ziyalıların və din xadimlərinin dini radikalizmlə mübarizədə fəal olmalarının vacibliyindən danışıb.

Daha sonra Qax Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Nəzirməhəmməd Nəsirov, Qax rayon qazısı Novruz Sadıqov və QMİ-nin rayon üzrə səlahiyyətli nümayəndəsi Hacı Əsgərov da mövzu ətrafında məruzələr ilə çıxış ediblər.

Tədbirin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

## Oğuz

Tədbirdə DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, Oğuz Rayon İcra Hakimiyyəti başçısının müavini Yusif Naxçıvanski, DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin müdiri Gündüz Paşayev, QMİ-nin Şəki-Oğuz rayonları üzrə səlahiyyətli nümayəndəsi Kamran Məmmədov, dini icma sədrləri, rayon ağsaqqalları, ziyalılar və gənclər iştirak ediblər.

Əvvəlcə Oğuz RİH başçısının müavini Yusif Naxçıvanski rayondakı dini durum barədə məlumat verib. Qeyd edib ki, Oğuz rayonu etnik və dini tərkibinə görə Azərbaycanın ən unikal bölgələrindən biridir. Rayonda müsəlman, xristian və yəhudi dinlərinin mənsubları, eləcə də müxtəlif millətlərin nümayəndələri qədim zamanlardan bəri sülh və qardaşlıq şəraitində yaşayırlar.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı çıxışında müsəlman aləmini və bütün dünya ictimaiyyətini narahat edən dini radikalizmdən, İslam coğrafiyasında baş verən münaqişələrin əsasında radikal dini ideyaların dayanmasından, dini radikalizmə qarşı mübarizənin əhəmiyyətindən və metodlarından geniş söhbət açıb. Natiq dini radikalizmə qarşı mübarizədə dini icmaların, din xadimlərinin üzərinə düşən vəzifələr haqqında danışıb.

Daha sonra QMİ-nin Şəki-Oğuz bölgəsi üzrə qazısı Kamran Məmmədov mövzu ilə bağlı çıxış edərək öz fikirlərini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.



# Gündüz İsmayılov: “Multikultural və tolerant dəyərlər Azərbaycanın mənəvi sərvətidir”



“Ölkəmizdə heç zaman milli-dini zəmində qarşıdurmanın baş verməməsi, həmçinin qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni və etnik-dini münasibətlərin hökm sürməsi xalqımızın özünəməxsus milli xüsusiyyətindən irəli gəlir. Bu nümunəvi xüsusiyyət Azərbaycanın müstəqillik illərində daha da möhkəmlənib və fərqli mədəniyyətlərin, dinlərin nümayəndələrinə hörmətlə yanaşmaq ənənəsi məhz Ümummilli Lider Heydər Əliyevin müdrik siyasəti sayəsində dövlət siyasətimizin prioritet istiqamətlərindən birinə çevrilib. Elə bu səbəbdən də çoxmillətli, çoxkonfessiyalı məkan olan Azərbaycan mədəniyyətlərarası dialoqun bənzərsiz məkanına çevrilib və bu zəngin təcrübənin beynəlxalq aləmdə təbliğinin gücləndirilməsini zəruriləşdirib. Ölkə başçısı cənab İlham Əliyevin 2016-cı ili Azərbaycan Respublikasında “Multikulturalizm ili” elan etməsi də məhz bu zərurətdən irəli gəlir”. Bu fikirləri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov yap.org.az saytına müsahibəsində ifadə edib.

Sədr müavini qeyd edib ki, “Multikulturalizm ili” ilə əlaqədar Tədbirlər Planında il ərzində həm ölkə daxilində, həm də xaricdə tədbirlərin keçirilməsi nəzərdə tutulub. Bu məqsədlə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) də bir sıra təbirlər – konfranslar, seminar-treninqlər, “dəyirmi masa”lar, yazı müsabiqəsi təşkil edib və hazırda bu istiqamətdə işlər davam etməkdədir. Müxtəlif dini konfessiyalara mənsub dini icmaları, din xadimlərini, dindarları, xüsusilə dindar gəncləri, eləcə də qeyri-hökumət təşkilatlarını, kütləvi-informasiya vasitələrini, yaradıcı qurumları, ziyalıları, habelə Azərbaycanda fəaliyyət göstərən diplomatik korpusun nümayəndələrini əhatə edən bu tədbirlərdə Azərbaycan xalqının zəngin multikultural, tolerant dəyərləri, dövlətin bu sahədə həyata keçirdiyi ardıcıl, eyni zamanda qətiyyətli siyasəti təbliğ və təşviq olunur”.

Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı “Multikulturalizm Azərbaycanda həyat tərzidir, dövlət siyasətidir və alternativi yoxdur” – fikrini xatırladan G.İsmayılov bu anlayışın multikulturalizmin hakim olduğu bütün dövlətlər üçün xarakterik olduğunu vurğulayıb. Bildirib ki, hansısa qanunu və ya idarəetmə formasını istənilən vaxt yenisi ilə əvəzləmək mümkündür, ancaq xalqın mədəniyyətini yüz illər keçsə belə, dəyişmək mümkün deyil: “Tarixən müxtəlif etno-mədəni qrupların və dini konfessiyaların birgə yaşadığı ölkəmizdə multikulturalizm siyasətinin banisi Ümummilli Lider Heydər Əliyevdir. Ulu Öndərin ikinci dəfə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycanı nəinki vətəndaş müharibəsindən qurtardı, eyni zamanda ölkəmizdə mövcud olan bütün milli azlıqları vahid azərbaycançılıq ideologiyası ətrafında birləşdirdi. Onun həyata keçirdiyi bu siyasət Prezident İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirilir. Bir sözlə, multikultural və tolerant dəyərlər Azərbaycanın mənəvi sərvətidir. Hazırda Azərbaycan dünyada bu dəyərlərin ən böyük ixracatçısına çevrilib. Azərbaycanda multikulturalizmin dövlət siyasətinin mühüm istiqamətinə çevrilməsi sadəcə müəyyən dövrü əhatə edən bir kampaniya deyil. Bu, dövlətimizin milli-mənəvi, ümumbəşəri, humanist dəyərlərə söykənən davamlı və ardıcıl siyasətidir”.

Komitə sədrinin müavinin fikrincə, hazırda Qərbdə multikulturalizmin süquta uğradığı bir vaxtda, multikulturalizmin Azərbaycan modelinin uğurunun sirri müxtəlif millətlərin və dinlərin təmsilçilərinin öz kimliklərini qorumasında və digərinə hörmətlə yanaşmaqla inkişaf etmək iqtidarında olmasındadır. Bunun əksinə, universal model kimi təqdim olunmağa çalışılan Qərbsayağı multikulturalizm digər mədəniyyət daşıyıcılarının fərqli dəyərlərini qəbul etmir: “Belə olan halda Avropa dövlətləri fərqli mədəniyyət və din daşıyıcılarını Qərb cəmiyyətinə yalnız assimilyasiya etməyə çalışırlar, ona görə də bu ölkələrdə multikulturalizm özünü doğrultmur. Halbuki, qloballaşan dünya fərqli mədəniyyətlərin birgəyaşayışı nəzərə alınmadan mövcud ola bilməz. Azərbaycan üçün multikulturalizmin əhəmiyyəti həm daxili sabitlik və inkişaf, həm də geosiyasi vəziyyət nəzərə alınmaqla xarici ölkələrlə münasibət baxımından zəruridir”.

Dövlət Komitəsinin son zamanlar maarifçiliyin keyfiyyətinə diqqəti daha da artırdığını vurğulayan G.İsmayılov ölkənin bütün regionlarında dini icma nümayəndələri, dindarlar və ictimaiyyətlə silsilə konfranslar, müşavirələr, “dəyirmi masa”lar təşkil olunduğunu deyib: “Maarifləndirmə istiqamətində işlər elektron kütləvi informasiya vasitələri, mətbu orqanlar və Dövlət Komitəsi tərəfindən hazırlanan nəşrlər vasitəsilə də həyata keçirilir. Bu məqsədlə müxtəlif ədəbiyyatlar çap olunaraq, dini icmalara paylanılır. Çap olunan nəşrlər arasında “Heydər Əliyev siyasəti: Tolerantlıq”, “İlham Əliyev: Azərbaycan tolerantlıq örnəyidir”, “Tolerantlıq: bildiklərimiz və bilmədiklərimiz”, “İslamda Vətən və dövlət sevgisi” və s. kitablar milli-mənəvi dəyərlərimizin qorunması və təbliği, ölkəmizdə tarixən mövcud olan tolerantlıq və multikultural ənənələrinin inkişaf etdirilməsi baxımından böyük önəm daşıyır. Dövlət Komitəsinin mətbu orqanları - “Dövlət və Din” jurnalı, “Cəmiyyət və Din” qəzeti, həmçinin İctimai Televiziyada yayımlanan və müəllif proqramımız olan “Din və Cəmiyyət” verilişi əhaliyə sağlam dini bilgilərin verilməsi sahəsində fəaliyyətlərini davam etdirir”.

Azərbaycanın son illər Prezident İlham Əliyevin birbaşa təşəbbüsü və iştirakı ilə çoxlu sayda beynəlxalq tədbirlərə ev sahibliyi etdiyini də xatırladan Komitə sədrinin müavini bunun ən bariz nümunəsinin aprel ayında “İnklüziv cəmiyyətlərdə birgəyaşama: çağırış və məqsəd” devizi altında Bakıda keçirilən BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu olduğunu söyləyib. Bildirib ki, ölkəmizdən kənarda çoxsaylı tədbirlər keçirilir, Azərbaycanda olan tolerant mühitin dünyaya çatdırılması üçün çox böyük işlər görülür və Dövlət Komitəsi öz növbəsində bu sahədə fəaliyyətini, əlaqələrini daim genişləndirir. Bu məqsədlə Dövlət Komitəsinin rəhbərliyi səviyyəsində xarici ölkələrə səfərlər edilir, dövlət və hökumət rəsmiləri, beynəlxalq və qeyri-hökumət təşkilatlarının təmsilçiləri və digər yüksək rəsmi şəxslərlə görüşlər keçirilir, birgə konfranslar təşkil olunur. Keçmiş təcrübələrimiz göstərir ki, bu cür əməkdaşlıqlar ölkəmizdə multikultural dəyərlərin yüksək səviyyədə inkişafına təkan verir, dövlət-din münasibətlərinin qarşılıqlı hörmət və anlaşma əsasında qurulduğu xarici ölkə nümayəndələri tərəfindən qəbul olunur və Azərbaycan təcrübəsinin model kimi öyrənilməyə başlanılmasına şərait yaradır”.

Müsahibədə Prezident İlham Əliyevin 27 noyabr 2014-cü ildə imzaladığı Sərəncamın ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işinin daha da gücləndirilməsi üçün dini icmalara maliyyə yardımı göstərmək məqsədi daşıdığını diqqətə çatdıran G.İsmayılov bu məqsədlə, 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə 2,5 milyon manat vəsait ayrıldığını deyib: “Həmin vəsait mərhələli şəkildə xüsusi layihələr çərçivəsində dini icmalara paylanılır. İndiyədək 102 İslam, 19 qeyri-İslam dini icmasına maddi vəsait ayrılıb. Vəsaitin səmərəli şəkildə sərf edilməsi və işlərin yüksək səviyyədə təşkil olunması üçün Dövlət Komitəsi tərəfindən dini icmalara həm təşkilati, həm də informasiya dəstəyi göstərilir. Həmin vəsait hesabına Dövlət Komitəsinin dəstəyi ilə icmalar tərəfindən dini maarifləndirmə və milli-mənəvi dəyərlərimizin təbliği, gənclərin dini radikal təsirlərdən qorunması istiqamətində Bakı şəhərində və respublikanın regionlarında müxtəlif tədbirlər həyata keçirilib. Həmçinin ölkəmizdə fəaliyyət göstərən dini icmaların Dövlət Komitəsi tərəfindən keçirilən müxtəlif tədbirlərdə, layihələrdə iştirakı onların cəmiyyətə inteqrasiyasında ciddi irəliləyişlər yaradıb”.

# Uzun illərdir, ölkəyə Gülənin dinlə bağlı kitablarının idxalına icazə verilmir



“2015-ci ildə təkcə idxal edilən 672 adda dini məzmunlu ədəbiyyata baxılıb. Bu kitablardan 147-nin dini dözümsüzlük, ayrı-seçkilik, dini nifrət və düşmənçiliyi aşıladığına görə ölkəyə idxalına icazə verilməyib. Qalan dini ədəbiyyatların ölkəyə gətirilməsinə isə icazə verilib. Həmçinin ölkədə dini ədəbiyyatın nəşr olunması ilə bağlı komitəyə 187 müraciət daxil olub.

Həmin müraciətlərdən 5-nə razılıq bildirilməyib. Həmin dini ədəbiyyatların məzmununda dini nifrət və düşmənçilik aşılandığına görə ölkədə çapı məqsədəuyğun hesab edilməyib”. Bu sözləri Trend-ə müsahibəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dinşünaslıq ekspertizası şöbəsinin müdiri Nahid Məmmədov deyib. Komitə rəsmisi bildirib ki, ötən il hüquq-mühafizə orqanlarından komitəyə 506 adda dini kitab daxil olub. Onlardan 240 adda dini ədəbiyyatın zərərli olduğu aşkarlanıb. Bu barədə də hüquq-mühafizə orqanlarına müvafiq arayışlar verilib. Bu ilin 6 ayında isə 630 adda dini məzmunlu ədəbiyyata baxılıb. Bunlardan 40 adda kitabın ölkəyə idxalına razılıq verilməyib. Çapla bağlı isə 128 müraciət daxil olub. Onlardan 3-nün çapı məqsədəuyğun hesab olunmayıb.

Türkiyədə Fətullah Gülən camaatının (FETÖ) törətdiyi terrorla bağlı suala cavabında N.Məmmədov deyib ki, nurçular və FETÖ camaatını ayrı-ayrı qiymətləndirmək lazımdır. Klassik nurçular siyasətə qarışmadıqlarını bəyan edirlər: “Fətullah Gülən camaatının fəaliyyəti barədə biz illər öncə müzakirələr aparırdıq, danışırdıq və KİV vasitəsilə çıxışlar edirdik. Türkiyədəki son hadisələr bunu göstərdi ki, onların planları baş tutmayanda silaha əl atır, çevriliş və qiyam etməkdən çəkinmirlər. Biz bu qrupa qarşı Türkiyədən öncə mübarizə aparmışıq. Bəziləri qeyd edir ki, Türkiyədən sonra bu şəbəkənin ikinci geniş yayıldığı ölkə Azərbaycandır, amma bu belə deyil. Hələ 2009-cu ildə qanunvericilikdə edilmiş dəyişikliklərdən öncə Gülənin dini kitablarının, eləcə də onun çıxışlarından ibarət audio-video materialların kütləvi şəkildə ölkəyə gətirilməsi və yayılması Dövlət Komitəsi tərəfindən məqsədəuyğun hesab edilməyib. Azərbaycanda istər hüquq-mühafizə orqanları, istərsə də müvafiq qurumlar bu istiqamətdə lazımi fəaliyyət göstərib. Biz bu şəbəkəni əvvəldən təhlükə mənbəyi kimi görmüşük. Uzun illərdir ki, biz Fətullah Gülənlə bağlı kitabların ölkəyə idxalına icazə vermirik. Çünki onun ideyaları savadlı kadrları tapmaq, onları yüksək səviyyədə təhsil verməklə yetişdirmək və müəyyən qurumlarda yerləşdirmək yolu ilə həmin orqanlarda gücə çevirməkdən ibarətdir”.

# "Azərbaycanda multikultural dəyərlər: mədəni müxtəliflik və sivil birgəyaşayış məkanı"



Xaçmaz rayonunda Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu və Xaçmaz Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə avqustun 9-da "Azərbaycanda multikultural dəyərlər: mədəni müxtəliflik və sivil birgəyaşayış məkanı" mövzusunda regional konfrans keçirilib.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Xaçmaz şəhərinin mərkəzində ucaldılmış abidəsinin qarşısına gül dəstləri düzüb, xatirəsinə ehtiramlarını bildiriblər.

Xaçmaz Tarix-Diyarşünaslıq Muzeyində keçirilən konfransda rayon icra hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayev çıxış edərək ölkəmizdə tarix boyu mövcud olmuş tolerantlıq mühitindən danışıb. Bildirilib ki, Azərbaycanın bütün regionlarında, o cümlədən şimal bölgəsində fərqli etnik qruplara, dini baxışlara malik insanlar sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Bununla belə heç vaxt etnik və dini zəmində qarşıdurma olmayıb.

Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli çıxışında regional konfransın əhəmiyyətindən danışaraq vurğulayıb ki, Azərbaycanda hökm sürən etnik və dini tolerantlıq dünyaya nümunədir. Ölkəmizdə istər dini, istərsə də milli və irqi ayrı-seçkilik yoxdur.

V.Səfərli müxtəlif dini konfessiya nümayəndələri arasında əməkdaşlığın genişlənməsində və multikultural dəyərlərin təşviqində medianın önəmli rol oynadığını xüsusi vurğulayıb. Qeyd edib ki, son altı ayda ölkə mediasında multikulturalizm və tolerantlıq mövzusunda aid 350 səhifədən çox yazı çap olunub.

Daha sonra Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov, Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidmətinin aparıcı məsləhətçisi Ceyhun Məmmədov və "Xalq Cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli konfransda məruzələrlə çıxış ediblər. "Multikulturalizm və tolerantlıq Azərbaycan cəmiyyətinin həyat tərzidir", "Multikulturalizm Azərbaycan dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi", "Multikultural dəyərlərin təşviqində medianın rolu" mövzusundakı məruzələr konfrans iştirakçıları tərəfindən maraqla qarşılanıb.

Konfransın gedişində şimal regionunda fəaliyyət göstərən bir sıra dini icmaların rəhbərləri, Qafqaz Müsəlmanları İdarəsinin bölgədəki yerli nümayəndələri ilə qarşılıqlı fikir mübadiləsi aparılıb, ekspertlər iştirakçıları maraqlandıran sualları cavablandırıblar.

## Dini icma rəhbərləri PPA-ya etiraz məktubu ünvanlayıb

Azərbaycanda fəaliyyət göstərən qeyri-islam dini icmaların rəhbərləri bu ilin 4-8 iyul tarixlərində Yunanıstanın Saloniki şəhərində Parlamentlərarası Pravoslav Assambleyasının (PPA) 23-cü illik toplantısının iştirakçıları tərəfindən qəbul olunan "Fundamental Qlobal Təhdidlər – Xristian Pravoslav Perspektivi" adlı qətnamənin sonuncu bəndinə - Azərbaycanın ərazi bütövlüyünü şübhə altına alan və aprel döyüşləri ilə bağlı tamamilə yanlış məlumatı özündə əks etdirən müddəaya etirazlarını bildiriblər.

Etiraz məktubu Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr Ata, Bakı şəhəri Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev, Alban-udi xristian icmasının sədri Robert Mobili, Azərbaycanda Katolik kilsəsinin Apostol Prefekturasının ordinarisi Vladimir Fekete, "Həyat sözü" xristian dini icmasının sədri Rasim Xəlilov, Bakı şəhəri Yevangelist Məsihi Baptistlərinin "Aqape" dini icmasının sədri Yəhya Məmmədov, Xilaskar Yevangelik Lüteranların Bakı dini icmasının sədri Vera Nesterova və "Yeni Həyat" xristian incil dini icmasının sədri Lyudmila İbrahimova imzalayıblar.

Müraciətdə bildirilir ki, Parlamentlərarası Pravoslav Assambleyasının bu ilin 4-8 iyul tarixlərində Yunanıstanın Soloniki şəhərində keçirilən 23-cü illik toplantısında qəbul olunan "Fundamental Qlobal Təhdidlər – Xristian Pravoslav Perspektivi" adlı qətnamə müasir dünyanın, xüsusilə də Avropanın taleyi üçün əhəmiyyətli və həssas məsələlərə toxunsa da, təəssüf ki, qətnamədə Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı müddəalar reallıqdan və obyektivlikdən uzaqdır: "Nəzərinizə çatdırırıq ki, Ermənistanın Azərbaycana qarşı işğalçılığı və etnik təmizləmə siyasəti nəticəsində Azərbaycan ərazisinin 20 faizi işğal olunub, 1 milyondan artıq azərbaycanlı öz doğma yurdlarından qaçqın və köçkün düşüb. Hərbi təcavüz nəticəsində təxminən 403 tarixi-dini abidə erməni işğalı altında qalıb. Milli, dini ənənəni özündə daşıyan bu abidələr ermənilər tərəfindən məhv edilir, tarixi alban məbədləri isə erməniləşdirilir, qriqoryanlaşdırılır. Bütün bunlara baxmayaraq, Azərbaycan paytaxtının mərkəzində yerləşən erməni kilsəsinin Azərbaycan dövlətinin mühafizəsi altında olması təqdirəlayiq haldır. Təəssüf ki, Ermənistan tərəfindən münaqişə tarixi boyu törədilmiş insanlığa zidd əməllər və vandalizm bu ilin aprel ayında yenidən təkrarlanıb. Ermənistan silahlı qoşunlarının törətdikləri fitnəkar təxribat nəticəsində bu ilin aprel ayının əvvəlində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində baş verən döyüşlərdə yüzlərlə insan, o cümlədən mülki şəxslər həlak olub, Azərbaycanın Ağdam və Tərtər rayonlarının ərazilərində başqa sahələrlə yanaşı, XIX əsrə aid olan tarixi-dini abidələr də erməni vandalizminə məruz qalıb, bəzi məscidlərə ciddi ziyan dəyib. Biz dini konfessiyaların, dini liderlərin və dini qurumların sülh və qardaşlıq naminə bir araya gəlmələrini qiymətləndirir, lakin Parlamentlərarası Pravoslav Assambleyasının "Fundamental Qlobal Təhdidlər – Xristian Pravoslav Perspektivi" adlı qətnaməsinə hansısa tərəfin maraqlarından çıxış edərək, Dağlıq Qarabağ barəsində düzgün olmayan, təxribat xarakterli müddəanın əlavə edilməsini Parlamentlərarası Pravoslav Assambleyasının xristianlıq və demokratiya prinsipləri və dəyərləri üzərində qurulan hədəflərinə zidd olduğunu düşünürük. Biz baş verən hadisələrin, eyni zamanda Azərbaycan dövlətinin apardığı siyasətin şahidi kimi sizi qərəzsiz və düzgün mövqe nümayiş etdirməyə, ədalətin bərpası üçün səy göstərməyə çağırırıq".

Qeyd edək ki, məsələ ilə bağlı hazırda Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri tərəfindən müvafiq işlər aparılır.

## "Dini radikalizmlə mübarizədə dini icmaların rolu" mövzusunda tədbir keçirilib



Avqustun 16-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Qaradağ Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Sahil qəsəbəsində rayon ərazisindəki dini icmaların rəhbərlərinin və dindarların iştirakı ilə "Dini radikalizmlə mübarizədə dini icmaların rolu" mövzusunda tədbir keçirilib.

Qaradağ rayonunda dini qurumlarla işin təşkilatçısı Yusif Nəsibov Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan edildiyini, multikulturalizmin ölkəmizdə dövlət siyasəti ilə yanaşı, həyat tərzi olduğunu tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Tədbirdə çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dinşünaslıq ekspertizası şöbəsinin müdiri Nahid Məmmədov dini radikalizmə qarşı mübarizə metodlarından, bu məsələdə dini icmaların üzərinə düşən vəzifələrdən, dini maarifləndirmə işinin təşkili prinsiplərindən danışıb.

Qafqaz Müsəlmanları İdarəsinin Qaradağ rayonu üzrə səlahiyyətli nümayəndəsi, qazı Rahib Babayev ölkəmizdəki sabitliyin və əmin-amanlığın qorunub saxlanılmasında din xadimlərinin fəaliyyəti ilə bağlı ümumi prinsipləri qeyd edib. Bu işin daha mütəşəkkil formada davam etdirilməsinin vacibliyini vurğulayıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Bakı şəhəri üzrə şöbəsinin müdiri Anar Kazımov Qaradağ rayonu ərazisində fəaliyyət göstərən məscidlər və dini icmalarla bağlı ümumi məlumat verib. Rayon ərazisində və ümumilikdə Bakı şəhərində dini radikalizmə qarşı mübarizədə görülən tədbirlərdən, yerli icra strukturları və hüquq-mühafizə orqanları, o cümlədən Qafqaz Müsəlmanları İdarəsi ilə əlaqəli fəaliyyətin təşkili nəticəsində əldə olunan müsbət nəticələrdən söhbət açıb. Dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən dövlət siyasəti sayəsində ölkəmizdə tolerant mühitin qorunub saxlanıldığını vurğulayıb.

Sonra tədbir iştirakçıları mövzu ilə bağlı fikirlərini və dini radikalizmə qarşı mübarizə yolları ilə bağlı təkliflərini diqqətə çatdırıblar. Sonda dini icma sədrləri tərəfindən Bakı şəhəri, Qaradağ rayonu və ümumilikdə respublikamızda dini radikalizmə qarşı mübarizədə görülən mütərəqqi addımlarla bağlı Prezident İlham Əliyevə təşəkkür məktubunun ünvanlanması təklif edilib və təklif yekdilliklə qəbul olunub.

# "ABŞ Dövlət Departamentinin beynəlxalq din azadlığı üzrə hesabatında qeyri-dəqiq informasiyalar kifayət qədərdir"



ABŞ Dövlət Departamentinin beynəlxalq din azadlığı haqqında 2015-ci il hesabatında əvvəlki illərdən fərqli olaraq ölkəmiz barədə xeyli pozitiv müddəalar öz əksini tapıb. Hesabatda Azərbaycan hökumətinin ölkədə dini tolerantlığın qorunması və dinlərarası dialoqun təşviqi sahəsində mühüm işlər gördüyü, Azərbaycan cəmiyyətinin tarixən dinlərin dinc birgəyaşayışına nail olduğu, cəmiyyət müstəvisində dini azadlığın məhdudlaşdırılmasına dair heç bir hala rast gəlinmədiyi vurğulanır. Eyni zamanda qeyd edilir ki, Azərbaycan Konstitusiyası insanların dini etiqad azadlığını qoruyur.

Bunu APA-nın sorğusuna cavab olaraq Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Xarici əlaqələr şöbəsinin müdiri Nicat Məmmədli bildirib. O qeyd edib ki, təəssüf ki, keçən ili əhatə edən hesabatda yenə də dəqiqləşdirilməmiş və qərəzli məlumatlar yer alıb. Bəzən bu məlumatlar gülüş doğursa da, bəzən tamamilə həqiqətdən uzaq iddialar təəccübə səbəb olur.

Məsələn, çox gülünc müddəalardan biri guya hansısa dindarın "gizli polis" tərəfindən həbs edilməsidir. Dövlət Departamenti kimi ciddi bir qurumun hesabatında belə bir informasiyanın əksini tapması təəssüf doğurur. Digər bir iddiaya görə, məhkəmələr tərəfindən qanunların pozulmasına görə tətbiq edilmiş cərimələr gizli saxlanılır. Məlumdur ki, məhkəmə qərarları şəffafdır və ictimaiyyət bu barədə məlumatları rahatlıqla əldə edə bilir. Digər tərəfdən, məgər bu hesabatı hazırlayanlar guya bu qərarlar nəticəsində hüquqları pozulmuş insanlardan cərimənin məbləğini öyrənə bilməzdimi?! Belə çıxır ki, məhkəmə cərimələrin məbləğini cərimə olunan şəxsin özündən də gizlədir?!

Azərbaycanda dini durum barəsində hesabat hazırlayan Dövlət Departamenti iddia edir ki, guya dövlət hansısa məscidlərdə imamları dəyişir. Hesabatın özündə də əks olunduğu kimi dövlət dini məsələlərə müdaxilə etmir, məscidlərdə imamların təyinatı və dəyişdirilməsi isə yalnız Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətindədir. Hesabat müəlliflərinin iddialarına görə dini icmaların qeydiyyatı prosesi çətindir. DQİDK dəfələrlə bildirib ki, ölkəmizdə dini icmaların qeydiyyatı proseduru kifayət qədər sadə və şəffafdır. Bu prosedur sözü gedən hesabatın ehtiva etdiyi 2015-ci ildə daha da sadələşmişdir. Məhz bunun nəticəsidir ki, 2015-ci ildə qeydiyyatdan keçmiş icmaların sayı əvvəlki illərə nisbətən artaraq 49-u müsəlman, 3-ü qeyri-müsəlman olmaqla 52 olmuşdur.

Təəssüf ki, ABŞ Dövlət Departamentinin beynəlxalq din azadlığı üzrə hesabatında belə qeyri-dəqiq informasiyalar kifayət qədərdir ki, bunun da əsas səbəbi informasiyanın etibarlı qaynaqlara deyil, qərəzli mənbələrdən əldə edilməsidir. Buna baxmayaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi bir daha bildirir ki, gələcəkdə bu kimi hesabatların daha obyektiv hazırlanması və ölkəmizdəki qarşılıqlı hörmətə və dialoqa əsaslanan stabil dini durumu adekvat əks etdirməsi üçün bütün beynəlxalq institutlarla, o cümlədən ABŞ Dövlət Departamenti ilə əməkdaşlığa açıqdır.

# "Xurafat və dini radikalizmlə mübarizədə qadınların rolu"

Avqustun 23-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə "Xurafat və dini radikalizmlə mübarizədə qadınların rolu" mövzusunda konfrans keçirilib.

Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, Binəqədi Rayon İcra Hakimiyyətinin, Yeni Azərbaycan Partiyası Binəqədi Rayon Təşkilatının Qadınlar Şurasının üzvləri, eləcə də fəal qadınlar, ziyalılar və gənclər iştirak ediblər. Binəqədi Rayon İcra Hakimiyyətinin başçısının müavini Aygün Əliyeva bildirib ki, konfransın keçirilməsində məqsəd dini radikalizmin qurbanına çevrilmiş qadınlar, xurafat və onun törətdiyi fəsadlar, xurafatın zərərləri, falçılıq, yas mərasimlərində dini təbliğatın düzgün aparılmaması ilə bağlı müzakirələr təşkil etmək və bu sahədə fikir mübadiləsi aparmaqdır. O qeyd edib ki, cəmiyyətimizin inkişafında qadının rolu olduqca böyükdür.

Dövlət Komitəsinin şöbə müdiri Elnarə Kərimova bildirib ki, bugünkü cəmiyyət qadınların, anaların tərbiyəsinin məhsuludur. İslam dini qadının məhz elmli, təhsilli olmasını istəyir. Çünki qadın bir anadır. O, övladını öyrəndiyi elm, aldığı təhsil sayəsində tərbiyə etməlidir. Bu baxımdan insanlar arasında maarifləndirmə işi aparılır. Nə qədər təbliğat aparılarsa, bir o qədər də müsbət nəticə əldə etmək olar.

Konfrans müzakirələrlə davam etdirilib.




# "Dövlət-din münasibətləri" mövzusunda konfrans



Avqustun 25-də DQİDK və Lənkəran Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Dövlət-din münasibətləri" mövzusunda konfrans keçirilib.

Konfransda DQİDK və Lənkəran Rayon İcra Hakimiyyətinin rəsmiləri, idarə və təşkilatların rəhbərləri, təhsil, mədəni-maarif müəssisələrinin işçiləri, din xadimləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Konfransı giriş sözü ilə açan Lənkəran Rayon İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov multikulturalizmin hökm sürdüyü Azərbaycanda, o cümlədən Lənkəranda dövlət-din münasibətlərinin qüvvədə olan qanunvericiliyin tələblərinə tam cavab verən şəkildə tənzimləndiyini, milli mənsubiyyətindən asılı olmayaraq hər bir inanclı insanın dini etiqad azadlığının Konstitusiya normaları səviyyəsində təmin olunduğunu deyib.

Daha sonra çıxış edən DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin müdiri Qağayı Məmmədov bölgənin hazırkı dini durumu barədə məlumat verərək, Azərbaycanda bütün dinlərin, mədəniyyətlərin nümayəndələrinin sülh, qardaşlıq şəraitində yaşadıqlarını, ölkəmizdə tolerantlıq, dünyəvilik, multikulturalizm ənənələrinin və milli-mənəvi dəyərlərin yüksək səviyyədə mövcudluğunu diqqətə çatdırıb.

Konfransda dövlət-din münasibətlərinin qüvvədə olan qanunvericiliyin tələblərinə uyğun qurulması ilə bağlı məruzələr və çıxışlar dinlənilib, irəli sürülən təkliflərlə bağlı müvafiq tövsiyə və tapşırıqlar verilib.

# FETÖ, neqativ eksternaliya və qeyri-simmetrik informasiya



FETÖ bu gün dünya mətbuatının çox müzakirə edilən mövzularından birinə, postmodernist dillə desək, FETÖ siyasi diskursun predmetinə çevrilib. Əslində, Fətullah Gülən və onun hərəkatı əvvəllər də həm akademik, həm də media gündəmini məşğul edib. FETÖ, demək olar ki, bütün siyasi təhlilçilər tərəfindən onun ictimai təhlükəli fenomen olması nöqteyi-nəzərindən kifayət qədər analiz edilib. Lakin bu fenomenin sosial fəsadlarının daha yaxşı anlaşılması üçün bir də siyasi iqtisad yönündən yanaşılmasına ehtiyac var. Bu cür yanaşmanı həm də FETÖ-yə qarşı və ya onun fəaliyyətinin nəticələrinin aradan qaldırılmasına yönəlmiş dövlət siyasətinin mahiyyətinin anlaşılması zəruri edir.

Təsəvvür edək ki, ictimai münasibətlər də bazar münasibətləri kimi tələb-təklif qanunu əsasında formalaşır. İdeal halda cəmiyyət sosial münasibətlər sisteminin bütün tələblərini və ya sosial sifarişi ödəmək üçün zəruri nemətləri kənar müdaxilə olmadan istehsal edir. Bu ideal model o vaxta qədər keçərlidir ki, bazar uğursuzluğu (market failure) baş verməsin. Bazar uğursuzluğu dövlətin müdaxiləsini şərtləndirir. Bazar uğursuzluğu zamanı bazar münasibətlərinin səmərəliliyinin (efficiency) və ədalətliliyinin (equity) təmin edilməsinin əsas vasitəsi dövlətin müdaxiləsidir. Dövlət müdaxiləsini zəruri edən bazar uğursuzluğunun bir neçə forması var ki, FETÖ fenomeni haqqında danışarkan bunlardan ikisi ağıla gəlir.

### FETÖ neqativ eksternaliya kimi

Bunlardan birincisi eksternaliyadır. Eksternaliya bazar əməliyyatları zamanı bu əməliyyatlara aidiyyəti olmayan üçüncü tərəfin həmin əməliyyatlara təsiridir. Daha aydın anlaşılsın deyə praktik nümunəyə baxaq. Tutaq ki, siz ev almaq istəyirsiz və münasib bir ev bəyənmisiz. Həmin evin sahibi sizi evin ikinci mərtəbəsində eyvana çıxarır və qonşunun həyətində əkilmiş son dərəcə gözəl gül-çiçəkli mənzərəni göstərir. Hələ üstəlik qeyd edir ki, onun evini təkcə elə qonşunun bu gülüstanına görə almağa (bəlkə, hətta bir az baha qiymətə) dəyər. Deməli, evin satıcısı qonşunun yaratdığı dəyərdən öz xeyrinə istifadə edir. Bu pozitiv eksternaliyadır. İndi eyni halın əksini təsəvvür edək. Sizin almaq istədiyiniz ev hər cəhətdən xoşunuza gəlir, amma həmin evin eyvanında yaxınlıqdakı zibilliyə mənzərə açılır və məhz bu səbəbdən də evin sahibi onu real qiymətindən ucuz satmağa məcburdur. Bu hal isə neqativ eksternaliyadır. Neqativ eksternaliyanın klassik nümunəsi ətraf mühiti çirkləndirən sənaye müəssisəsinin olması və onun həmin ərazidəki insanların sağlamlığına təsiridir. Bu cür neqativ eksternaliyada dövlətin müdaxiləsi iki cür ola bilər: ya normadan artıq çirklənməyə görə müəssisədən vergi və ya cərimə alınması (bu cərimə müəssisəni məcbur edir ki, çirklənməni normal səviyyədə saxlamaq üçün filtrlər tətbiq etsin), ya da çirklənmə ərazisində yaşayan insanlara əlavə kompensasiya verilməsi. Hər iki halda məqsəd tarazlığa (equilibrum) nail olmaqla yanaşı, səmərəliliyi təmin etmək və ədaləti qorumaqdır.

İndi isə bu dediklərimizi ictimai münasibətlər sisteminə tətbiq etməklə FETÖ-nün neqativ eksternaliya olduğunu sübut etməyə çalışaq. Din ictimai münasibətlər sisteminin ayrılmaz hissəsidir. Bu münasibətlərin iki tərəfi var. Mənəvi tələbatlarının ödənməsini istəyən cəmiyyət (tələb tərəfi) və bu tələbatların ödənməsi üçün öz xidmətlərini təklif edən din təsisatı və onun agentləri olan dini qruplar, qurumlar və s. (təklif tərəfi). Azərbaycanda din-cəmiyyət münasibətlərinin özünəməxsus yeri var. Cəmiyyət həmişə həqiqi möminlərə, əsl din xadimlərinə xüsusi hörmət və qayğı ilə yanaşıb. Həmçinin cəmiyyətin siyasi təşkili forması kimi dövlətin də dinə münasibəti həmişə yüksələn xətt üzrə inkişaf edib. FETÖ isə qarşılıqlı etibarı zədələməklə həm cəmiyyət-din münasibətlərinə, həm dövlət-din münasibətlərinə mənfi təsirini göstərir. Həm də qarşılıqlı münasibətlərə (transaction) bu cür mənfi təsir bu münasibətlərin iştirakçılarının öz iradəsi ilə olmadığından neqativ eksternaliyadır. Buna praktik misalın bu günlərdə birbaşa şahidi oldum. Qeyri-hökumət təşkilatlarından birinin təşkil etdiyi tədbirdə çıxış etmək istəyən bir din xadiminə verilən ilk sual "Siz nurçu deyilsiz ki?" oldu. Cəmiyyət dindar olan və ya dinlə bu və ya digər şəkildə bağlılığı olan istənilən şəxsə "potensial" nurçu kimi yanaşma təhlükəsi ilə üz-üzədir. Məhz FETÖ dinin cəmiyyətdəki etimadını ciddi şəkildə imtahana çəkib. Deməli, bu cür neqativ eksternaliya dövlətin tənzimləyici rolunda müdaxiləsini zəruri edir.

Yeri gəlmişkən, dövlət pozitiv eksternaliya halında da bəzən müdaxilə edir. Məsələn, ətrafın abadlaşdırılması ilə məşğul olan icmanın dövlət tərəfindən dəstəklənməsi kimi. Azərbaycanın timsalında dövlət cəmiyyətdəki tolerantlığın qorunub saxlanmasına töhfə verən dini qurumların dəstəklənməsi üçün maddi vəsait ayırır. Dini tolerantlıq və dinc birgəyaşayış cəmiyyətin stabil inkişafının mühüm şərtlərindəndir və dinə münasibətindən asılı olmayaraq, ictimai münasibətlərin bütün iştirakçıları bu cür tolerant mühitdən fayda götürür. Deməli, bu halda tolerantlıq həm də pozitiv eksternaliyadır. Dinin dövlətdən ayrı olduğu sərt sekulyar model nümunəsi olan Azərbaycanda hökumətin dini icmalara pul ayırması pozitiv eksternaliyaya dövlət müdaxiləsinin tipik nümunəsidir.

FETÖ-nün neqativ eksternaliya kimi təzahür etdiyi ikinci nümunə təhsillə bağlıdır. Məlum olduğu kimi, FETÖ dünyanın bir çox ölkələrində, o cümlədən Azərbaycanda təhsil müəssisələri təsis edib. Bu müəssisələrdə təhsilin səviyyəsinin nisbətən yüksək olması kifayət qədər istedadlı və tərəfsiz insanları özünə cəlb edib. Bu gün həmin təhsil müəssisələrini bitirmiş və FETÖ-nün ideoloji maşınının indoktrinasiya edə bilmədiyi xeyli sayda insan var ki, "nurçu" adı ilə damğalanır. Bu adamların həmin təhsil müəssisələrini seçməkdə yeganə məqsədləri keyfiyyətli təhsil almaq olsa da, indi onların istər əmək bazarında, istərsə də cəmiyyət arasında stereotiplərlə üzləşməsi labüddür. Bu nə onların, nə də cəmiyyətin günahı deyil. Bu, FETÖ-nün neqativ eksternaliya kimi günahıdır.

### FETÖ və qeyri-simmetrik informasiya

Təhsil sahəsi ilə bağlı dövlətin müdaxiləsini zəruri edən ikinci bazar uğursuzluğuna da FETÖ-nün nümunəsində baxaq. Bazar uğursuzluğunun digər növü informasiya asimmetrikliyidir. Bu, o zaman meydana çıxır ki, bazarda alıcı və satıcı malın keyfiyyəti barədə fərqli informasiyaya malikdirlər. Məsələn, siz məşhur bir istehsalçıdan hər gün çörək alırsınız və sizin kimi həmin istehsalçıdan çörək alan çoxlu insan var. İstehsalçı çörəyin inqridiyentlərini onun üzərində göstərib. Lakin istehsalçı göstərməyib ki, çörəyin bişirilməsində istifadə olunan sobalarda ciddi kanserogen olan örtüklər var. Yəni istehsalçı və istehlakçının malın keyfiyyəti barədə informasiyaları simmetrik deyil. Yəqin ki, bu cür informasiya bir çox istehlakçıları həmin məhsulu almaqdan çəkindirərdi. FETÖ-yə məxsus təhsil müəssisələri də təhsil bazarında iştirak edərkən orada təhsillə yanaşı, ideoloji "beyinyuma" kimi zəruri prosedurların olması barədə məlumat verməyiblər. İstehlakçı isə yalnız keyfiyyətli təhsil məqsədilə həmin müəssisələrə üz tutub. FETÖ-nün nümunəsində qeyri-simmetrik informasiyanın bir xüsusiyyəti də nəzərə çarpır. Qeyri-simmetrik informasiyaya münasibətdə nemətlər iki qrupa bölünür. Birinci halda neməti əldə etməmişdən onun keyfiyyəti barədə nisbətən dəqiq mühakimə yürüdülə bilər. Məsələn, biz stul alsaq, onun necəliyini almazdan əvvəl yoxlaya bilərik. İkinci halda isə nemət haqqında dəqiq mühakiməni yalnız onu əldə etdikdən sonra yürütmək mümkündür. Məsələn, yeməyin necəliyini yalnız onu yedikdən sonra müəyyənləşdirmək olar. İnformasiya qeyri-simmetrikliyindən doğan bazar uğursuzluğu daha çox ikinici halda meydana çıxır. FETÖ məktəblərində də insanlar ora getməyənədək həmin məktəbdə onları nələrin gözlədiyini bilmirlər (bəlkə heç sonra da başa düşmürlər). Həm Azərbaycanda FETÖ-yə məxsus məktəblərin bağlanmasının, həm Ərdoğan hökumətinin bütün dünyada bu məktəblərin bağlanmasına dair hökumətlərə çağırış etməsinin kökündə informasiya qeyri-simmetrikliyindən doğan bazar uğursuzluğuna dövlət müdaxiləsinin zəruriliyi dayanır.

Yeri gəlmişkən, informasiya qeyri-simmetrikliyi ilə bağlı geniş yayılmış praktikalardan biri həmin qeyri-dəqiq informasiyanın üçüncü tərəf vasitəsi ilə möhkəmləndirilməsidir. Məsələn, üçüncü tərəfin verdiyi keyfiyyət sertifikatları bəzi hallarda bazara çıxarılmış mal haqqında obyektiv informasiyanı gizlətmək üçün istifadə olunur. Bu halda dövlət müdaxiləsinin yollarından biri keyfiyyətin dövlət tərəfindən yoxlanılmasıdır. Məsələn, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi dini ədəbiyyatın ekspertizasını təşkil edir. Bu halda dövlət siyasətinin məqsədi ictimaiyyətə təqdim olunan dini məhsulun keyfiyyətinin obyektiv şəkildə yoxlanılması və həmin məhsul barədə istehlakçıya simmetrik informasiyanın çatdırılmasıdır.

***Nicat MƏMMƏDLİ,***
***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Xarici əlaqələr şöbəsinin müdiri***

## "Azərbaycan dinlər və mədəniyyətlərarası beynəlxalq ahəng modelidir"

THE DAILY CALLER

ABŞ-ın "Daily Caller" portalında amerikalı keşiş Xuan Karlos Mendezin Azərbaycana səfər təəssüratlarından bəhs edən yazı yerləşdirilib.

Müəllif Azərbaycanın dinlərarası və mədəniyyətlərarası beynəlxalq ahəng modeli olduğunu vurğulayır. Qeyd edilir ki, Azərbaycan müsəlmanların, yəhudilərin və xristianların birgə, yanaşı yaşadıqları dünyəvi dövlətdir.

Məqalədə müəllif Bakıya səfəri çərçivəsində Azərbaycan Hökuməti tərəfindən təmir edilən kilsəyə baş çəkdiyini, kilsənin hazırda Azərbaycan Prezidentinin himayəsi altında olduğunu diqqətə çatdırır.

Səfər çərçivəsində şeyxülislam Allahşükür Paşazadə və millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayev ilə görüşdüyünü qeyd edən müəllif Azərbaycanda dini dəyərlərin olduqca yüksək tutulduğunu bildirib və məhz bunun nəticəsində ölkədə müxtəlif dinlərə ibadət edən insanların birgə sülh şəraitində yaşadığını diqqətə çatdırıb.

# Qısa-qısa




Avqustun 4-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) dəstəyi ilə Neftçala rayonu "Sahib Əzzaman" məscidi dini icması tərəfindən "Dini ekstremizm və radikalizmin multikultural cəmiyyət üçün təhlükələri" adlı layihə çərçivəsində tədbir keçirilib.

Tədbirdə DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin müdiri Azər Sadıqov, Dini maarifləndirmə işinin təşkili şöbəsinin aparıcı məsləhətçisi Tural Vəlizadə, Neftçala Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər üzrə şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Vasif Əliyev, dini icma sədri və şəhər axundu Mirseymur Əliyev, dini icma üzvləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Çıxışlarda keçirilən layihənin əhəmiyyətindən, dini ekstremizm və radikalizmin multikultural cəmiyyətlər üçün fəsadlarından, həmçinin milli-mənəvi dəyərlərin qorunması və təbliği istiqamətində Dövlət Komitəsi tərəfindən görülən işlərdən danışılıb və iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

* * *

Avqustun 11-də DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin və Quba Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə rayonun Zərdabi qəsəbəsində "Multikulturalizm, tolerantlıq və dini radikalizmlə mübarizə yolları" mövzusunda tədbir keçirilib.

Tədbirdə DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin müdiri Eynulla Nurullayev, Quba Rayon İcra Hakimiyyəti (RİH) başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Tariyel İbrahimov, Quba RİH başçısının Zərdabi qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Yalçın Tapdıqov, Quba Rayon Polis Şöbəsinin Zərdabi qəsəbə inzibati ərazi dairəsi üzrə sahə müvəkkili Şahin Ağamalıyev və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Çıxışlar zamanı bu gün Azərbaycanda istənilən ənənəvi din daşıyıcısının sərbəst şəkildə məscid, sinaqoq və kilsədə ibadət edə bilməsi, o cümlədən Prezident İlham Əliyevin Sərəncamı ilə dövlət tərəfindən dini icmalara maliyyə yardımı ayrılması barədə fikirlər səsləndirilib. Qeyd edilib ki, bütün bunlar Azərbaycanda multikulturalizmin inkişafına şərait yaratmaqla yanaşı, dünyanın bir çox aparıcı dövlətlərinin də diqqətini özünə çəkmişdir. Milli-mənəvi dəyərlərimizin zənginliyindən bəhs olunan tədbirdə ölkəmizdə müxtəlif xalqların və etnosların sülh və bərabərlik şəraitində yaşadığı, Quba rayonunun da bu cəhətdən zəngin olduğu və burada 20-dən çox xalqın nümayəndəsinin məskunlaşdığı vurğulanıb.

Sonda tədbir iştirakçılarına DQİDK-nın dəstəyi ilə çap edilən kitablar hədiyyə olunub.

* * *

Avqustun 18-də DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin və Quba rayonu II Nügədi kəndi "Molla Hud məscidi" dini icmasının birgə təşkilatçılığı ilə bir qrup yeniyetmənin Quba Soyqırımı Memorial Kompleksinə ziyarəti təşkil olunub. Ziyarət zamanı yeniyetmələr məzarlıqla yaxından tanış olub, baş vermiş hadisə haqqında geniş məlumat alıblar. İcma sədri İlkin Qayıbov yeniyetmələrin diqqətinə çatdırıb ki, xatirə kompleksi 1918-ci ildə bolşevik-erməni silahlı dəstələrinin Azərbaycan torpaqlarında həyata keçirdikləri kütləvi qırğınlar nəticəsində həlak olan on minlərlə azərbaycanlının xatirəsinə ucaldılıb. Qeyd olunub ki, Azərbaycan tarixinə XX əsrin ən faciəli soyqırımlarından biri kimi daxil olan qanlı faciə zamanı bolşevik-erməni silahlı dəstələri Bakı, Quba, Şamaxı, Göyçay, Cavad, Salyan, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran, Gəncə və digər bölgələrdə kütləvi qətliamlar törədib, mindən artıq kənd yandırılıb və dağıdılıb. O da vurğulanıb ki, 2007-ci ildə Quba şəhərində aparılan tikinti işləri zamanı təsadüfən aşkarlanan kütləvi məzarlıq 1918-ci ilin may ayında Qubada ermənilər tərəfindən törədilmiş soyqırımının əyani sübutudur.



* * *

Avqustun 24-də DQİDK-nın və Daxili İşlər Nazirliyinin birgə təşkilatçılığı ilə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Quba rayonu ərazisində yerləşən N saylı hərbi hissəsində "Dini radikalizmlə mübarizə yolları" mövzusunda tədbir keçirilib.



Tədbirdə DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov, Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov, Quba bölgəsi üzrə şöbəsinin müdiri Eynulla Nurullayev, Dövlət Komitəsinin əməkdaşı Tərxan Paşazadə və hərbçilər iştirak ediblər.

Çıxışlar zamanı bildirilib ki, hazırda dünyada elə dövlətlər var ki, onların orduları dini radikalizmin qurbanına çevrilərək öz ölkələrində həmvətənləri ilə müharibə aparırlar. Ancaq Azərbaycan ordusu şərəfini qoruya bilən, Vətəninə və dövlətinə sadiq ordudur. Qeyd olunub ki, radikalizmi doğuran başlıca səbəblərdən biri İslam dini haqqında məlumatsızlıq və yanlış yönləndirilmədir. İslam dini haqqında bilgiləri zəif olan insanların radikal cərəyanlara, qruplara cəlb edilməsi daha asan olur. Ona görə də dini radikalizmlə mübarizədə ilk növbədə dini maarifçilik işinin təşkilinə xüsusi önəm verilməlidir.

Çıxışlardan sonra hərbi qulluqçulara DQİDK-nın sifarişi ilə ərsəyə gələn "Fitnə" filmi təqdim olunub. Daha sonra film ətrafında müzakirələr aparılıb.



* * *

Avqustun 25-də DQİDK və Sabunçu Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Bakıxanov qəsəbəsində rayon ərazisindəki dini icmaların rəhbərlərinin və dindarların iştirakı ilə "Dini radikalizm və ekstremizmə qarşı mübarizə" mövzusunda tədbir keçirilib. Tədbirdə Sabunçu Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Ədalət Teymurov, DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov, Bakı şəhəri üzrə şöbəsinin müdiri Anar Kazımov və şöbənin əməkdaşları, Sabunçu rayonu hüquq-mühafizə orqanlarının əməkdaşları, dini icma nümayəndələri, rayon fəalları, ziyalılar iştirak ediblər.

Tədbirdə radikalizmə qarşı mübarizə metodlarından, dini radikalizm fenomenindən, bu mübarizədə dini icmaların üzərinə düşən vəzifələrdən, dini maarifləndirmə işinin təşkili prinsiplərindən söhbət açılıb. Bildirilib ki, dini radikalizm və ekstremizmə qarşı mübarizədə dövlətimiz hər zaman Azərbaycan cəmiyyətinin, dindarların yanındadır və bugünkü tədbir buna bariz nümunədir.

Qafqaz Müsəlmanları İdarəsinin Sabunçu rayonu üzrə səlahiyyətli nümayəndəsi Musa Qasımov, Bakıxanov qəsəbəsi "İmam Rza" məscidi dini icmasının sədri Əmirxan Tahirov və DQİDK-nın Bakı şəhəri üzrə şöbəsinin əməkdaşı Novruz Nuriyev çıxışlarında ölkəmizdəki sabitliyin və əmin-amanlığın qorunub saxlanılmasında din xadimlərinin fəaliyyəti ilə bağlı ümumi prinsipləri qeyd edərək, bu fəaliyyətin daha mütəşəkkil formada davam etdirilməsinin vacibliyini vurğulayıblar.

* * *

Avqustun 25-də Xırdalan şəhəri Mədəniyyət Mərkəzində DQİDK, Abşeron Rayon İcra Hakimiyyəti və "Türkiyə Universitetləri Məzunları" İctimai Birliyinin birgə təşkilatçılığı ilə "Dövlət-din münasibətlərinin Azərbaycan modeli: Gənclərin qarşısında duran vəzifələr" layihəsi çərçivəsində tədbir keçirilib.

Tədbirdə Abşeron Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Vüqar Bəşirov, "Türkiyə Universitetləri Məzunları" İctimai Birliyinin sədri Çingiz Bayramov, DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin məsləhətçisi Şahlar Məmmədov çıxış edərək ölkəmizdə dövlət-din münasibətlərinin formalaşmasından, dövlətin din siyasətindən, bu istiqamətdə qəbul edilmiş qanunvericilik aktlarından danışıblar. İctimai Birliyin digər nümayəndəsi, jurnalist Seymur Verdizadə isə öz çıxışında tolerantlığın bizə ata-babalarımızdan miras qaldığını və bu ənənənin müasir dövrdə həm cəmiyyətimiz, həm də dövlətimiz tərəfindən qorunaraq davam etdirildiyini diqqətə çatdırıb.

Daha sonra çıxış edən Abşeron rayon Güzdək qəsəbəsi "Rəsulullah" məscidinin axundu Mirkazım Kazımlı və Masazır qəsəbəsinin icra nümayəndəsinin müavini Fəxrəddin Hacıbəyli də mövzu ilə bağlı fikirlərini bölüşüblər.

***(ardı 13-cü səhifədə)***



## Qısa-qısa



*(əvvəli 12-ci səhifədə)*

Avqustun 26-da DQİDK-nın təşkilatçılığı ilə "Sülh aylığı" çərçivəsində Ağdaş şəhərində "İslamda sülh və tolerantlıq" mövzusunda tədbir keçirilib. Tədbirdə DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin əməkdaşları, Ağdaş Rayon İcra Hakimiyyətinin nümayəndələri, rayonda fəaliyyət göstərən dini icmaların sədrləri, din xadimləri və dindarlar iştirak ediblər.

Tədbirdə çıxış edən Ağdaş rayon Xosrov kənd "Hacı Bulud" məscidinin imamı Rövşən Osmanov İslamın sülh və sevgi dini olduğunu, insan hüquqlarına hörmətlə yanaşdığını qeyd edib. Qurani-Kərim və Məhəmməd peyğəmbərin (s) həyatından konkret misallar çəkməklə düşmənçilik və işğalçılıq siyasətinin İslama zidd olduğunu vurğulayıb.

* * *

Avqustun 27-də DQİDK və Göyçay Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Göyçay şəhər Heydər Əliyev Mərkəzində "Dini radikalizm və onun fəsadları" mövzusunda "dəyirmi-masa" keçirilib.

Tədbirdə Göyçay Rayon İcra Hakimiyyəti başçısının İctimai-siyasi və humanitar məsələlər üzrə müavini Raxşəndə Rəcəbova, Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Vüsal Zöhrabov, DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin müdiri vəzifəsini icra edən Əzim Rəfiyev, rayon fəalları, ziyalılar və gənclər iştirak ediblər.

Tədbirdə dini radikalizmə qarşı mübarizə metodlarından, dini radikalizm anlayışı və onun fəsadlarından, bu mübarizədə dini maarifləndirmə işinin təşkili prinsiplərindən söhbət açılıb. Qeyd edilib ki, dini radikalizm və ekstremizmə qarşı mübarizədə dövlətimiz hər zaman Azərbaycan cəmiyyətinin, dindarların yanındadır və bugünkü tədbir bunun bariz sübutudur.

* * *

Avqustun 27-də DQİDK-nın təşkilatçılığı ilə "Sülh aylığı" çərçivəsində Göyçay şəhərində "İslamda sülh və tolerantlıq" mövzusunda tədbir keçirilib.

DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin əməkdaşlarının, dini icma sədrlərinin, din xadimlərinin və dindarların iştirakı ilə baş tutan tədbirdə Ucar bölgəsi üzrə şöbənin əməkdaşı Rauf Nəsirov, Göyçay şəhər "Mərkəz" məscidi dini icmasının sədri Müşviq Əsgərov çıxış edərək bildiriblər ki, həyata keçirilən maarfləndirmə xarakterli bu kimi tədbirlər İslam dininin əsl mahiyyətinin anlaşılmasına, vətəndaşların öz hüquq və vəzifələrini daha dərindən öyrənmələrinə yardım edir.

Tədbir iştirakçıları da bu qəbildən tədbirlərin dini maarifləndirmə baxımından əhəmiyyətini yüksək qiymətləndirərək təşkilatçılara minnətdarlıqlarını bildiriblər.

* * *

Avqustun 29-da Neftçala rayonunda DQİDK, Neftçala Rayon İcra Hakimiyyəti və "Türkiyə Universitetləri Məzunları" İctimai Birliyinin birgə təşkilatçılığı ilə "Dövlət-din münasibətlərinin Azərbaycan modeli: Gənclərin qarşısında duran vəzifələr" layihəsi çərçivəsində tədbir keçirilib.

Tədbirdə DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin aparıcı məsləhətçisi Yusif Yusifli, Neftçala Rayon İcra Hakimiyyəti Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin aparıcı məsləhətçisi Elnur Bağırov, "Türkiyə Universitetləri Məzunları" İctimai Birliyinin sədri Çingiz Bayramov, İctimai Birliyin nümayəndəsi, jurnalist Seymur Verdizadə çıxış edərək



ölkəmizdə dövlət-din münasibətlərinin formalaşmasından, dövlətin din siyasətindən, bu istiqamətdə qəbul edilmiş qanunvericilik aktlarından danışıblar. Qeyd olunub ki, dövlətin bu sahədə gördüyü işlər, yürütdüyü ardıcıl və səmərəli siyasətlə yanaşı, cəmiyyətin hər bir üzvünün fəal iştirakı da zəruridir.

* * *

Avqustun 30-da DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Zaqatala Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Bakı İslam Universitetinin Zaqatala şöbəsində dini icma sədrlərinin və dindarların iştirakı ilə "Beynəlxalq Sülh Günü" münasibətilə "İslamda sülh və vəhdət missiyası" mövzusunda tədbir keçirilib.

DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin müdiri Mehman İsmayılov, həmin şöbənin məsləhətçisi Sərxan Tahirzadə, Zaqatala Rayon İcra Hakimiyyətinin nümayəndəsi İlqar Vəliyev və Gözbarax kənd məscidi dini icmasının sədri Emin Həsənov mövzu ətrafında məruzə ediblər. Çıxışçılar İslamın sülh və vəhdət dini olduğunu, müqəddəs kitabımızın dünyanı barışığa çağırdığını, Azərbaycan xalqının tarixən sülhsevər xalq olduğunu və İslam dəyərlərinə hər zaman vəhdət və sülh çərçivəsində yanaşdığını vurğulayıblar.

# Mübarizəmiz falçılıq-cadugərliyə, hər növ qara magiyaya qarşıdır



***"Falçılıq adı altında fəaliyyət göstərən şəxslərə qarşı hazırda Dövlət Komitəsi öz səlahiyyətləri çərçivəsində tədbirlər görür. Ümumilikdə bu sahədə vəziyyəti müəyyən etmək olduqca çətindir. Çünki bu qəbildən işbazların əməllərinə düçar olmuş şəxslər çox az hallarda bu əməlləri etiraf edir və aldadıldıqlarını bacardıqları qədər hər kəsdən gizlətməyə çalışırlar. Lakin bununla bağlı müraciət daxil olduqda aidiyyəti qurumlarla birlikdə müvafiq işlər aparılır". Bu sözləri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdir müavini-mətbuat katibi Bəhruz Müslümov Trend-ə müsahibəsində deyib.***

Komitə rəsmisi bildirib ki, vətəndaş aldadılaraq inamından sui-istifadə edilməsi, pulunun mənimsənilməsi kimi dələduzluq faktı ilə üzləşibsə, hüquq-mühafizə orqanlarına müraciət edə bilər. Dələduzluq faktı əsasında falçılıq fəaliyyəti ilə məşğul olan və saxtakarlıq edərək əhalinin pulunu mənimsəyən şəxslərə qarşı cinayət işi qaldırılır. Mənimsənilən məbləğ 100 manatdan yüksəkdirsə, yəni böyük ictimai təhlükə törətməyən dələduzluq faktı zamanı Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 178.1 maddəsinə əsasən 100 manatdan 700 manatadək cərimə, 360 saatdan 480 saatadək ictimai işlərə cəlb oluna və ya 2 il müddətinə azadlıqdan məhrum edilə bilər. Əgər vətəndaşın 3000 manatdan – 10000 manata qədər pulu mənimsənilibsə, falçılıqla məşğul olan şəxsi həmin məcəllənin 178.2.4 maddəsinə əsasən 3 min manatdan 5 min manatadək cərimə və ya 3 ildən 7 ilə qədər azadlıqdan məhrum edilmə cəzası gözləyir. Külli miqdarda dələduzluq faktıdırsa, yəni 10 min manatdan yuxarı məbləğdə dələduzluq faktı qeydə alınıbsa, bu zaman təqsirləndirilən şəxsi həmin məcəllənin 178.3.2 maddəsinə əsasən 7 ildən 10 ilə qədər azadlıqdan məhrum edilmə cəzası gözləyir. Həmçinin dələduzluq nəticəsində mənimsənilən məbləğ 100 manatdan aşağıdırsa, bu halda da şəxs cəzadan kənarda qalmır. Dələduzluq əməlini törətmiş şəxsə qarşı Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 227-ci maddəsi ilə cəza tətbiq edilir. Dələduzluq yolu ilə özgəsinin əmlakını 100 manata qədər talamağa görə iki yüz manatdan iki yüz əlli manatadək məbləğdə cərimə edilir və ya işin hallarına görə xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda isə iki ayadək müddətə inzibati həbs tətbiq edilir.

B.Müslümovun sözlərinə görə, 2009-cu ildə "Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Əsasnamə"sinin 7.9-cu bəndinə edilmiş əlavə və dəyişikliyə əsasən, müvafiq inzibati xətalar haqqında işlərə baxmaq Dövlət Komitəsinin vəzifələrindən biridir: "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsi yeni qəbul olunduğu üçün orada bəzi xətalarla bağlı protokolun hansı qurum tərəfindən tərtib edilməsi ilə bağlı hazırda iş aparılır. Düşünürəm ki, 227-ci maddə ilə bağlı inzibati protokol tərtib etmək hüququ Dövlət Komitəsinə də verilərsə, bu hallara qarşı mübarizə daha da intensivləşdirmək mümkün olar".

Komitə rəsmisi qeyd edib ki, bizim müəyyən etdiyimiz mübarizə falçılıq-cadugərliyə, hər növ qara magiyaya qarşıdır. Təbii ki, demokratik ölkədə yaşadığımıza görə hamı istədiyi adama müraciət edə və bu fəaliyyətlə məşğul olan şəxsin xidmətindən yararlana bilər: "Biz burada müraciət edən tərəfi maarifləndirməyə çalışırıq, lakin şəxs bunu istəmirsə və falçıya müraciət edirsə, bu halda nə edə bilərik? Biz insanları fırıldaqçılardan qorumalıyıq. Bu halda bizə cəmiyyət və mətbuat da kömək etməlidir".



# "Dini radikalizmlə mübarizə: mənəvi və hüquqi yanaşma"




**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) dini radikalizm və ekstremizmlə mübarizə çərçivəsində milli-mənəvi dəyərlərimizin təbliği, tolerant və multikultural ənənələrimizin təşviqi məqsədilə bir sıra tədbirlər həyata keçirir. Bu qəbildən növbəti tədbirlər DQİDK-nın və Quba Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Dini radikalizmlə mübarizə: mənəvi və hüquqi yanaşma" mövzusunda avqustun 22-də rayonun Digah kəndində, avqustun 23-də Alpan kəndində, avqustun 24-də isə Amsar kənd məscidində baş tutub.**

Tədbirlərdə DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov, Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov, Dövlət Komitəsinin Quba bölgəsi üzrə şöbəsinin müdiri Eynulla Nurullayev, DQİDK-nın əməkdaşı Tərxan Paşazadə, Quba Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Tariyel İbrahimov, ictimaiyyət nümayəndələri və ziyalılar iştirak ediblər.

Çıxışçılar Azərbaycanda mövcud olan multikultural mühitdən, tolerantlıqdan, müxtəlif xalqların, etnosların sülh və bərabərlik şəraitində yaşamasından söhbət açaraq, Quba rayonunun da bu cəhətdən zəngin olduğunu və burada 20-dən çox azsaylı xalqın birgə və dinc şəraitdə yaşadığını vurğulayıblar. Qeyd edilib ki, dini radikalizm sabitliyi və tolerant mühiti pozmağa hesablanan bir vasitə olsa da, nə Azərbaycan xalqı, nə də dövləti buna imkan verər. Ümumiyyətlə, Azərbaycan Respublikasının vətəndaşlarının başqa dövlətlərin ərazisində qanunsuz silahlı birləşmələrin tərkibində vuruşması bizim qanunlarımıza ziddir və həmin şəxslər üçün məsuliyyət nəzərdə tutulur. Lakin dövlətimiz heç bir vətəndaşının həbs olunaraq cəmiyyətdən təcrid edilməsinin tərəfdarı deyil. Azərbaycan dövləti öz vətəndaşına münasibətdə olduqca həssasdır.

Çıxışlar zamanı həmçinin dini radikalizmlə mübarizə yollarından, radikalizmin yaranmasının psixoloji, dini və hüquqi tərəflərindən, müasir dövrdə dini radikalizmin yaranmasında informasiya blokadasının rolundan, internet resursların istifadəsindən bəhs olunub. O cümlədən, DQİDK-nın sifarişi ilə ərsəyə gələn "Fitnə" filmi nümayiş etdirilib və iştirakçıları maraqlandıran suallar cavablandırılıb, onlara Dövlət Komitəsinin razılığı ilə çap edilmiş dini ədəbiyyatlar hədiyyə edilib.

* * *



**Dini radikalizm və ekstremizmlə mübarizə çərçivəsində növbəti silsilə tədbirlər DQİDK-nın və Xaçmaz Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Dini radikalizmlə mübarizə: mənəvi və hüquqi yanaşma" mövzusunda avqustun 25-də rayonun Nərəcan kənd məscidində, avqustun 26-da Qobuqırağı kənd məscidində, avqustun 27-də Xudatkənd kənd məscidində keçirilib.**

Tədbirlərdə DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdiri Sadiq Mirzəyev, Dinşünaslıq ekspertizası şöbəsinin müdir müavini Cahandar Əlifzadə, Quba bölgəsi üzrə şöbəsinin müdiri Eynulla Nurullayev, Xaçmaz Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Ceyhun Musayev və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Dövlətin dini radikalizmlə mübarizə sahəsində həyata keçirdiyi maarifləndirmə tədbirlərinin əhəmiyyətindən və verdiyi müsbət nəticələrdən bəhs olunan tədbirlərdə çıxışçılar İslamın terrorla eyniləşdirilməsi cəhdlərinə toxunaraq bunu səhv yanaşma adlandırıblar. Vurğulanıb ki, dini zəmində baş verən müharibələr cəmiyyətin normal ahəngini pozur, onun psixoloji vəziyyətini mənfi tərəfə dəyişir. Dini radikalizmə meyillənənlərin çoxunu isə təhsildən və maariflənmədən kənarda qalan gənclər təşkil edir. Odur ki, dövlətimiz dini radikalizmlə mübarizə sahəsində dini maarifləndirmə və ideoloji işin aparılmasına üstünlük verir. Qeyd edilib ki, dini radikalizmi yayan dini ədəbiyyatlar birmənalı olaraq Azərbaycana buraxılmır və ölkə daxilində də çapına razılıq verilmir.

Çıxışların ardınca DQİDK-nın sifarişi ilə ərsəyə gələn "Fitnə" filmi iştirakçılara təqdim olunub. Nümayişdən sonra filmlə bağlı müzakirələr aparılıb və qonaqlara DQİDK-nın razılığı ilə çap edilmiş dini ədəbiyyatlar hədiyyə edilib.

# Silahlı Qüvvələrdə tolerantlıq və multikulturalizm həftəsi davam edir

Müdafiə Nazirliyi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) "Multikulturalizm ili" çərçivəsində birgə Tədbirlər Planına əsasən, "Milli-mənəvi, mədəni dəyərlərimizi yad təsirlərdən qoruyaq!" devizi altında keçirilən tolerantlıq və multikulturalizm həftəsi davam edir.




Tədbirlərdə Müdafiə Nazirliyi və DQİDK-nın rəsmiləri, Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndələri, tanınmış ilahiyyatçılar iştirak edirlər.

Həftənin təşkili və keçirilməsinə məsul olan Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi rəisinin müavini polkovnik Abdulla Qurbani bildirib ki, Prezident cənab İlham Əliyevin tolerantlıq və multikulturalizm sahəsində həyata keçirdiyi ardıcıl siyasətin nəticəsidir ki, ölkəmiz artıq dünyada dinlərarası və mədəniyyətlərarası dialoqun aparıcı qüvvəsinə çevrilib: "Möhtərəm Prezidentimizin 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan olunması barədə Sərəncamı bütün xalqımız kimi Silahlı Qüvvələrin şəxsi heyəti tərəfindən də böyük rəğbətlə qarşılanıb. Müxtəlif sivilizasiyaların qovuşduğu məkan olan Azərbaycan əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı bir diyar kimi tanınır. Silahlı Qüvvələr cəmiyyətimizin bir hissəsi olduğundan, burada da tolerantlıq mühitinin, multikultural dəyərlərin təbliği şəxsi heyətin təlim-tərbiyəsində mühüm əhəmiyyət kəsb edir".

DQİDK-nın Dinşünaslıq ekspertizası şöbəsinin müdiri Nahid Məmmədov çıxışında nəzərə çatdırıb ki, bu gün beynəlxalq, regional və ölkələr səviyyəsində ən çox müzakirə olunan məsələlərdən biri tolerantlıqdır. Dövlət başçımızın da dəfələrlə qeyd etdiyi kimi, tolerantlıq bizim həyat tərzimizdir, Azərbaycan xalqının əsrlər boyu formalaşan və çoxları üçün örnək olan xarakterik xüsusiyyətidir.

Polkovnik-leytenant Rasim Manafov şəhidlik zirvəsinə ucalan Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülən yəhudi Albert Aqarunovun, rus İqor Makeyevin, ahısqa türkü İsgəndər Aznaurovun, belarus Anatoli Davidoviçin, ləzgi Fəxrəddin Musayevin və bir çox xalqın nümayəndələrinin Qarabağ döyüşlərində göstərdikləri rəşadət və şücaətindən danışaraq vurğulayıb ki, bu gün Silahlı Qüvvələrimizdə onların yüzlərlə, minlərlə davamçıları var. Bu dostluq, qardaşlıq və birlik aprel döyüşlərində bir daha öz təsdiqini tapıb.

Dövlət Komitəsinin Gəncə bölgəsi üzrə şöbəsinin müdiri Asif Əliyev və Qafqaz Müsəlmanları İdarəsinin Goranboy və Naftalan şəhərləri üzrə səlahiyyətli nümayəndəsi Anar Orucov bildiriblər ki, bu kimi tədbirlər şəxsi heyətin həm döyüş ruhunun, həm vətənpərvərlik hissinin, həm də mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsi istiqamətində öz müsbət təsirini göstərəcəkdir.

Ordumuzun bu gün daha qüdrətli, əsgər və zabitlərin isə daha peşəkar olduğunu və qarşıya qoyulmuş döyüş tapşırıqlarını ləyaqətlə yerinə yetirdiklərini bildirən Bakı şəhər Məşədi Dadaş məscidinin axundu Hacı Şahin Həsənli qeyd edib ki, aprel döyüşlərində Azərbaycan əsgərinin uzun illərdən sonra xalqımıza yaşatdığı qələbə sevinci bunun bariz nümunəsidir və din xadimləri də bu qələbədən böyük qürur duyur. O, bəzi gənclərin aldadılaraq müsəlmanlara kömək etmək adı altında digər ölkələrə aparılmasını tənqid edib və deyib ki, bu gün şəhid olmaq, cihad etmək istəyən buyurub Qarabağa gəlsin.

Tolerantlıq və multikulturalizm həftəsi çərçivəsində hərbi hissələrdə "Ulu Öndər Heydər Əliyevin Azərbaycançılıq məfkurəsi əsasında milli-mənəvi dəyərlərin qorunub saxlanılması və inkişafının istiqamətləri", "Dini ekstremizmlə mübarizədə hərbi qulluqçuların yeri və rolu", "Müstəqil Azərbaycan Respublikası mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında əməkdaşlığın ünvanıdır", "İslamda şəhidlik anlayışı", "İntihar insanın Yaradana qarşı üsyanıdır", "Din və Vətən müdafiəçilərinin əxlaq kodeksi" və s. mövzularda seminarlar, "dəyirmi masa"lar, disputlar, din xadimləri ilə görüşlər, söhbətlər təşkil olunub.

Müxtəlif millətlərin nümayəndələri olan hərbi qulluqçularımız - Yuri Kurşinov, Oktay Hacıyev, Sənan Allahverdiyev, Natiq Heybətov, Hamlet Nizamzadə və Emin Razilov çıxış edərək Azərbaycan vətəndaşı olmaqlarından və bu diyarın müdafiəsində dayanmaqlarından fəxrlə danışıblar. Onlar qonaqları əmin ediblər ki, bundan sonra da vətənə, xalqa, dövlətə sədaqətlə xidmət edəcək, Azərbaycan uğrunda Ali Baş Komandanın hər bir əmrinə daim hazır olacaqlar.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əməkdaşları tərəfindən hazırlanmış "İşğal altındakı tarixi-dini abidələrimiz", "Azərbaycanda tolerantlıq ənənələri", "Tolerantlıq - bildiklərimiz və bilmədiklərimiz", "İslamda vətən və dövlət sevgisi", "Şəhid - şəhidin qanı yerə tökülmür, cəmiyyətin damarlarına axır" adlı kitabların təqdimatı şəxsi heyətin böyük marağına səbəb olub və əsgər kitabxanalarına Dövlət Komitəsi tərəfindən kitablar hədiyyə edilib.

# Qurban bayramının sosial əhəmiyyəti

İslam aləmində müqəddəs sayılan günlərdən biri də Qurban bayramıdır. Bu bayram hər il hicri təqvimi ilə Zilhiccə ayının 10-cu günü - Həcc ziyarəti başa çatdıqdan sonra başlayır və adətən üç gün davam edir. Bu bayram İbrahim peyğəmbərin (ə) Allahın adına qurban kəsməsi şərəfinə İslam dinində hər il qeyd olunur. Mərasimlərdə həm dişi, həm də erkək olmaqla qoyun, keçi, camış, öküz, dəvə və ya bu cinsdən olan heyvanlar qurban kəsilə bilər. Ağıllı və həddi buluğa çatmış, eyni zamanda maddi imkanı olan hər bir müsəlman bu heyvanlardan birini Allah rizası üçün kəsməli, onu Qurani-Kərim və Peyğəmbərin (s) sünnəsinə uyğun bölüşdürməlidir. Kəsilən heyvanların qüsursuz olması, yəni kor, şikəst, xəstə və s. kimi qüsurlarının olmaması nəzərə alınmalıdır. Dinimizdə Allahdan başqa bir məbudun adına qurban kəsmək haram sayılır. Müqəddəs Kitabımızda buyurulur: **"Ölü (kəsilmədən ölüb murdar olmuş) heyvan, qan, donuz əti, Allahdan başqasının adı ilə (bismillah deyilmədən) kəsilmiş, boğulmuş, (küt alət və ya silahla) vurulmuş, (bir yerdən) yıxılaraq ölmüş, (başqa bir heyvanın buynuzu ilə) vurulub gəbərmiş, vəhşi heyvanlar tərəfindən parçalanıb yeyilmiş - canı çıxmamış kəsdiyiniz heyvanlar müstəsnadır - dikinə qoyulmuş daşlar (bütlər və ya Kəbənin ətrafındakı bütpərəst qurbangahlar) üzərində kəsilmiş heyvanlar və fal oxları ilə pay bölmək sizə haram edildi..."** (Maidə, 3). Həzrət Peyğəmbər (s) də bununla bağlı xəbərdarlıq edərək demişdir: "Allah Ondan qeyrisinin adına qurban kəsənə lənət etsin".

Qurban kəsmə adətinin yaranma tarixi ilə bağlı araşdırmalar göstərir ki, bu adət Adəm peyğəmbərdən (ə) bu yana bütün ümmətlərdə mövcud olmuşdur. Qurani-Kərimdə bu barədə buyurulur: **"(Ya Rəsulum!) Onlara Adəmin iki oğlunun əhvalatını olduğu kimi söylə. Onlar qurban gətirdikləri zaman birinin qurbanı qəbul edilmiş, digərininki isə qəbul olunmamışdı. (Qurbanı qəbul olunmayan Qabil qardaşı Habilə) demişdi: "Səni mütləq öldürəcəyəm! (Habil ona) belə cavab vermişdi: "Allah yalnız müttəqilərdən (qurban) qəbul edər!"** (Maidə, 27).

Qurban ayini Yaradana təslimiyyətin, təmənnasız sevginin və fədakarlığın rəmzidir, Allaha sevgi ilə dünya



neməti arasında bir seçimdir. Həzrət İbrahim (ə) Allah-Təalanın əmrinə tabe olaraq 13 yaşlı oğlu İsmayılı (ə) qurban verməyə, Həzrət İsmayıl (ə) da Allah rizası üçün qurban edilməyə razı olmuşdur. Onların bu əməlində bir təslimiyyət dərsi, taleyə boyun əymə, kamil ibadət və razılıq nümunəsi vardır. Uca Yaradan öz seçdiyi bəndələrinin ibadətlərini, sevgilərini bölüşdürülmədən sadəcə Ona yönəlməsini istəməsi səbəbi ilə onları belə imtahanla sınamışdır. Həzrət İbrahimin (ə) bu fədakarlığı, təslimiyyəti Allah tərəfindən bəyənilmiş və onun "Allahım, məni məndən sonra gələnlərə gözəl xatirə et" duası qəbul olunmuşdur. Bu xatirə isə İbrahim peyğəmbərdən (ə) sonra gələn ümmətlərə Allah tərəfindən yerinə yetirilməsi vacib buyurulan əməllər sırasına daxil edilən qurbankəsmə ayini olmuşdur. Bütün müsəlmanlar hər il yerinə yetirdikləri qurbankəsmə mərasimlərində Allahdan gələn nidaya əsasən Həzrət İbrahimi (ə) xatırlayırlar. Məhəmməd peyğəmbər (s) də bunu öz ümmətinə belə tövsiyə etmişdir: "Qurban kəsin, çünki Qurban kəsmək atanız İbrahimin sünnəsidir".

İslam dininin gözəl adətlərindən biri olan Qurban bayramı, eyni zamanda sosial yardımlaşma növüdür. Dinimizdə bayramlar əslində müsəlmanların birləşməsi, birliklərini təcəssüm etdirməsi üçün vasitədir. Çünki bayramlar sayəsində müsəlmanlar bir araya gəlir, sevinclərini bölüşür və bir-biriləri ilə yardımlaşırlar. Bəzən müəyyən səbəblərdən əlaqə saxlaya bilməyən insanlar da bayramlar vasitəsilə bir-birilərini yad edirlər. Məhz bayramlar vasitəsilə kasıblara daha çox yardım olunur, onların maddi və mənəvi ehtiyacları ödənilir. Onlar da özlərini cəmiyyətin bir parçası kimi hiss edirlər.

Müsəlmanların birlik və qardaşlığını təcəssüm etdirən vasitələrdən biri də bu günlərdə qılınan bayram namazlarıdır. Bu zaman müsəlmanlar Allah-Təalaya yaxınlığın əbədi həzzini namazları, təkbirləri vasitəsilə bütün kainata elan edər, Allaha şükürlərini və Onun dininə sədaqətlərini yeniləyirlər. Bayram namazlarından sonra müsəlmanlar sevinc içində bir-biriləri ilə bayramlaşır və qurbankəsmə ayini yerinə yetirirlər. Əl-Bara ibn Azib (r.a) rəvayət edir: "Peyğəmbər (s) belə buyurmuşdur: "Bu gün bizim öncə edəcəyimiz iş namaz qılmaqdır. Sonra qayıdaraq qurban kəsəcəyik. Kim belə edərsə, sünnəyə müvafiq olmuşdur. Hər kim (namazdan qabaq) kəsmişsə, bu ailəsi üçün kəsdiyi ət sayılır..."

Birgə yerinə yetirilən ayinlər vasitəsilə Allah müsəlmanların bölünməz bir ümmət olduğunu bildirir. Yəni milliyyətindən, irqindən, sosial vəziyyətində asılı olmayaraq bütün müsəlmanlar qardaşdırlar. İslamda müsəlmanın öz din qardaşına yardım etməsi əmr olunmuşdur. Bu birliyə əsasən kəsilmiş qurbanın bir hissəsinin kasıblar, yoxsullar və kimsəsizlər arasında paylanması Qurani-Kərim və Peyğəmbər (s) tərəfindən buyurulmuşdur. Müqəddəs Kitabımızda bu barədə deyilir: **"...Onlardan (kəsilən qurbanların ətindən) özünüz də yeyin, biçarə (zavallı) yoxsula da yedirdin"** (Həcc, 28). Həzrət Məhəmməd (s) də qurban ətinin üç yerə bölünməsini, bir hissəsini qurban kəsməyən yoxsullara, bir hissəsinin qohum-əqrəbaya, tanışlara və qonşulara paylanılmasını, bir hissəsinin də evdə saxlanılmasını tövsiyə etmişdir. Lakin bəzi din alimlərinin fikrincə, kasıb və böyük ailəsi olan bir müsəlman qurban kəsdiyi zaman onun ətini paylamayaraq, hamısını öz ailəsinə yedirə bilər.

Qurban ətinin yalnız müsəlmanlar arasında deyil, eyni zamanda qeyri-müsəlmanlar, başqa dindən olan yardıma möhtac insanlar arasında paylanması barədə fərqli yanaşmalar olsa da, bu əmələ xoş niyyət kimi baxmaq lazımdır. Bu da İslamı yardımlaşma, cəmiyyətdəki insanların qayğısına eyni səviyyədə yanaşan din kimi təcəssüm etdirir. Çünki İslam dinində yardımlaşmada sərhəd yoxdur. İstər müsəlman, istərsə də başqa din mənsubu olsun Allah bütün möhtaclara yardım edilməsini buyurmuşdur. Bu yolla İslamın bütün gözəllikləri qeyri-müsəlmanlara göstərilmiş olur.

***Hazırladı: Rima HACIYEVA***

## DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

**Ləğv olunan dini icmalar**

**Qobustan rayonu Sündü kəndinin "Əbu Bəkr" məscidinin dini icması**
Qeydiyyat tarixi: 26.02.1997-ci il
Qeydiyyat №-si: 143

İsmayıllı rayonu Kürdmaşı kənd dini icması təsisçilərinin 05.07.2016-cı il tarixli, 02 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul olunmuşdur.
**Ləğv olunması:**
**29 iyul 2015-ci ildə qeydə alınıb.**

---

**Qobustan rayonu Nabur kənd dini icması**
Qeydiyyat tarixi: 30.12.2002-ci ildə
Qeydiyyat №-si: 149

Qobustan rayonu Nabur kənd dini icması təsisçilərinin 05.07.2016-cı il tarixli, 01 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.
**Ləğv olunması:**
**29 iyul 2016-cı ildə qeydə alınıb.**

## Elan

**Astara rayonu Kijəbə qəsəbəsi Lovayın kənd məscidi dini icmasının** (24.02.2010-cu ildə 100110A1 – 236 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 29.07.2016-cı il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul olunmuşdur.

---

**Salyan rayonu Xıdırlı kənd məscidi dini icmasının** (22.07.2010-cu ildə 100110A3 – 447 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 11.08.2016-cı il tarixli ümumi yığıncağında 02 nömrəli protokol ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir.

---

**Bakı şəhəri Suraxanı rayonu Yeni Suraxanı qəsəbəsi "Quransevənlər" dini icmasının** (12.07.2006-cı ildə 1306B1-350 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 04.08.2016-cı il tarixli ümumi yığıncağında 02 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul olunmuşdur.

---

**"Həzrəti Rəhiməxanım" məscid-ziyarətgahı dini icmasının** (13.10.1993-cü ildə Ədliyyə Nazirliyində 26 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 12.08.2016-cı il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir.

# Salyanda dini radikalizmlə bağlı tədbir keçirilib



Avqustun 11-də Salyan rayonunda DQİDK-nın dəstəyi ilə "Dini radikalizmə qarşı mübarizədə dini icmaların fəaliyyətinin təşkili" mövzusunda seminar-treninq keçirilib. Tədbirdə DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov və şöbənin əməkdaşı Tural Əliyev, Salyan Rayon İcra Hakimiyyəti başçısının müavini Rəşad Cəbrayılov, DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin müdiri Azər Sadıqov, bölgə qazısı Hüsni Həsənov, Mirəşrəf ağa məscidinin axundu Ağalar Sadıqov, dini icma sədrləri, rayon ağsaqqalları, dindarlar, ziyalılar və gənclər iştirak ediblər.

Çıxışlarda bildirilib ki, dini icmalar öz fəaliyyətlərini gücləndirməli və iş prinsiplərini elə qurmalıdırlar ki, radikal dini cərəyan mənsubları onların buraxdığı nöqsanlardan yararlanıb, təbliğat apara bilməsinlər. Ona görə də dini icmalar radikal cərəyanlara qarşı mübarizədə maarifləndirici, preventiv, profilaktik və inzibati metoddan istifadə etsələr, problemin həllində effektiv nəticələr əldə oluna bilər.

Cəmiyyət və Din
№ 08 (301) / AVQUST 2016-cı il

# Dünyada ən bahalı tikili

Britaniyanın "Homes and Property" (Evlər və Əmlaklar) jurnalının dərc etdiyi reytinqə əsasən, müsəlmanların əsas ziyarətgahı sayılan Məkkədəki əl-Həram məscidi dünyanın ən bahalı tikilisi hesab olunub. 100 milyard dollara başa gələn məscid ilə yanaşı, bu siyahıya daha 9 bahalı bina daxil edilib. Minimum dəyəri 1,6 milyard dollar təşkil edən digər binalar ABŞ, Yaxın Şərq və Cənub-Şərqi Asiyada yerləşir.

Qeyd edək ki, Səudiyyə Ərəbistanının Məkkə şəhərində yerləşən və 360 min kvadrat metr ərazisi olan əl-Həram məscidi dünyada ən böyük müsəlman məbədidir.



## Rio-de-Janeyro göydələni dünyanın «səkkizinci möcüzəsi»nə namizəddir



Braziliyanın Rio-de-Janeyro şəhərində Solar City Tower (göydələn-şəlalə) inşa olunub.

Layihə İsveçrənin məşhur "RAFAA Architecture and Design" memarlıq bürosunun mütəxəssisləri tərəfindən hazırlanıb. Göydələn dünyanın "səkkizinci möcüzəsi"nə namizədlərdən biri sayılır.

Binanın 105 metr hündürlüyündə kafe və mağazalar yerləşir. Damında isə şəhərin mənzərəsini seyr etmək üçün baxış meydançası var.

## Araşdırma: 2030-cu ilədək 30 ölkədə gənc nəsil qalmayacaq



Demoqrafiya sahəsində maraqlı araşdırmaları ilə tanınan ekspert Cozef Çeymi artıq 15 ildən sonra bir sıra ölkələrdə gənc nəslin qalmayacağını bildirib. Onun fikrincə, bu sıraya Yaponiya, Kanada, İtaliya, Fransa da daxil olmaqla, 30 ölkə aiddir. Hazırda bu dövlətlərdə yaşlı nəsil çoxluq təşkil edir.

Araşdırmalar qeyd olunan rəqəmin sürətlə artdığını və 2030-cu ildə yaşlıların sayının gəncləri keçəcəyini göstərir. Maraqlı məqamlardan biri də müvafiq problemin yaşanmadığı yeganə qitənin Afrika olmasıdır.

## Çinli müsəlman həcc ziyarətinə velosipedlə yollanıb

"Gulf News" nəşri xəbər verir ki, bir çinli müsəlman dindaşlarını heyrətə gətirib. Belə ki, o, həcc ziyarətini yerinə yetirmək üçün vətənindən Səudiyyə Ərəbistanına qədər çox uzun bir yolu velosipedlə qət edib.



Çinin Sintsyan əyalətindən olan Məhəmməd Səudiyyə Ərəbistanının Taif şəhərinə qədər velosipedlə 8150 kilometrlik yol gəlib. Taifdə onu yerli velosiped klubunun nümayəndələri qarşılayıb və mətanətli müsəlmanı Məkkəyə qədər müşayiət ediblər.

## ABŞ alimləri otuz ildən sonra ölüləri dirildə biləcəklərini iddia edirlər

ABŞ alimləri bildiriblər ki, cəmi otuz ildən sonra bəşəriyyətə ölümsüzlük bəxş edə bilərlər. Lakin əbədi həyat yalnız çox zəngin insanlar üçün əlçatan olacaq. Tədqiqatçılar köhnə fiziki qabığın "yeniləməsini" təklif ediblər. Alimlər insan şəxsiyyətini saxlayaraq onu bionik bədənə köçürülməsi imkanı üzərində çalışırlar.

Layihənin müəllifi Coş Bokaneqranın fikrincə, insan şəxsiyyəti və düşüncəsinin əks olunduğu beyinin köçürülməsi texnologiyasını inkişaf etdirmək mümkündür. Bu texnologiya həyata keçirmək mümkün olarsa, ölülərin dirildilməsi reallaşacaq.

### Yadigar söz

**Vicdan əzabı itirilmiş ləyaqətin əks-sədasıdır.**

Edvard Bulver-Litton
*(ingilis yazıçısı)*

## Bakı və Abşeron üzrə namaz vaxtları (SENTYABR

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 4:43 | 6:07 | 12:40 | 17:19 | 19:28 | 20:32 |
| 2 | 4:44 | 6:08 | 12:40 | 17:18 | 19:26 | 20:30 |
| 3 | 4:45 | 6:09 | 12:40 | 17:17 | 19:24 | 20:28 |
| 4 | 4:46 | 6:10 | 12:40 | 17:15 | 19:23 | 20:26 |
| 5 | 4:48 | 6:11 | 12:39 | 17:14 | 19:21 | 20:24 |
| 6 | 4:49 | 6:12 | 12:39 | 17:13 | 19:20 | 20:23 |
| 7 | 4:50 | 6:13 | 12:38 | 17:11 | 19:18 | 20:21 |
| 8 | 4:51 | 6:14 | 12:38 | 17:10 | 19:16 | 20:19 |
| 9 | 4:52 | 6:15 | 12:38 | 17:09 | 19:15 | 20:17 |
| 10 | 4:53 | 6:16 | 12:37 | 17:08 | 19:13 | 20:15 |
| 11 | 4:55 | 6:17 | 12:37 | 17:06 | 19:11 | 20:14 |
| 12 | 4:56 | 6:18 | 12:37 | 17:05 | 19:10 | 20:12 |
| 13 | 4:57 | 6:19 | 12:36 | 17:04 | 19:08 | 20:10 |
| 14 | 4:58 | 6:20 | 12:36 | 17:02 | 19:06 | 20:08 |
| 15 | 4:59 | 6:21 | 12:36 | 17:01 | 19:04 | 20:06 |
| 16 | 5:00 | 6:22 | 12:35 | 16:59 | 19:03 | 20:04 |
| 17 | 5:01 | 6:23 | 12:35 | 16:58 | 19:01 | 20:03 |
| 18 | 5:02 | 6:24 | 12:35 | 16:57 | 18:59 | 20:01 |
| 19 | 5:03 | 6:25 | 12:34 | 16:55 | 18:58 | 19:59 |
| 20 | 5:05 | 6:26 | 12:34 | 16:54 | 18:56 | 19:57 |
| 21 | 5:06 | 6:26 | 12:34 | 16:52 | 18:54 | 19:56 |
| 22 | 5:07 | 6:27 | 12:33 | 16:51 | 18:53 | 19:54 |
| 23 | 5:08 | 6:28 | 12:33 | 16:50 | 18:51 | 19:52 |
| 24 | 5:09 | 6:29 | 12:32 | 16:48 | 18:49 | 19:50 |
| 25 | 5:10 | 6:30 | 12:32 | 16:47 | 18:48 | 19:48 |
| 26 | 5:11 | 6:31 | 12:32 | 16:45 | 18:46 | 19:47 |
| 27 | 5:12 | 6:32 | 12:31 | 16:44 | 18:44 | 19:45 |
| 28 | 5:13 | 6:33 | 12:31 | 16:43 | 18:43 | 19:43 |
| 29 | 5:14 | 6:34 | 12:31 | 16:41 | 18:41 | 19:42 |
| 30 | 5:15 | 6:35 | 12:30 | 16:40 | 18:39 | 19:40 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Mərəzə, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Fizuli, Horadiz, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Xanlar, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi və kollektivi Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılova nənəsi

**SONA ƏLİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi və kollektivi Qafqaz Müsəlmanları İdarəsinin Şamaxı və Qobustan rayonları üzrə səlahiyyətli nümayəndəsi, Şamaxı Cümə məscidinin imamı Mərəhməd Mustafayevə anası

**FƏRİDƏ MUSTAFAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin**

### NO COMMENT



Baş redaktor Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Oqtay ORUCOV *(məsul katib)*, Gennadi ZELMANOVİÇ.

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (055) 635 98 90
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 05 33
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
Tiraj: 1200
Sifariş: 568

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894